

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 11 (751) ■ 18 mart 2015 www.vergiler.az Qiyməti: 40 qəp.

# Pakistan İslam Respublikası Prezidentinin Azərbaycana rəsmi səfəri



Martın 11-də Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyni Azərbaycana səfər edib. Qarşılanma mərasimindən sonra dövlətimizin başçısı İlham Əliyevin və Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin təkbətək görüşü olub.

Görüşdə ölkələrimiz arasında dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq prinsiplərinə söykənən ikitərəfli münasibətlərin siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunub. Pakistan Prezidentinin Azərbaycana rəsmi səfərinin əlaqələrimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminlik bildirilib, ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə genişləndirilməsi üçün yaxşı potensialın olduğu qeyd edilib.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin geniş tərkibdə görüşü olub. Dövlətimizin başçısı iki ölkə arasında mövcud olan yüksək səviyyəli əməkdaşlıqdan söz açıb. Prezident İlham Əliyev Pakistan İslam Respublikasının Azərbaycanın mövqeyini beynəlxalq təsisatlarda daim dəstəklədiyini bildirib: «Azərbaycan da bütün beynəlxalq təsisatlarda Pakistanı dəstəkləyir. Bu, bizim səmimi əməkdaşlığımızın və əlaqələrimizin yaxşı nümunəsidir».

Pakistan Prezidenti Məmnun Hüseyn çıxışında dövlətimizin başçısına Azərbaycana dəvət etdiyi üçün təşəkkürünü bildirib: «Azərbaycana gəldiyim andan, elə hava limanından mənə göstərilən səmimi qəbula görə, həmçinin bir çox beynəlxalq məsələlərdə bizimlə apardığınız tərəfdaşlıq, bizə göstərdiyiniz dəstəyə görə təşəkkürümü bildirirəm. Əmin edirik ki, biz Dağlıq Qarabağ məsələsində Sizi dəstəkləyirik və bunu gələcəkdə də, inşallah, davam edəcəyik. Bəzi «qonşular» tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş bir sıra zorakılıqları pisləyirik. Xocalı qətliamını qətiyyətlə pisləyirik. Sizi əmin edirəm ki, hər bir çətin və ya yaxşı məsələnizdə sizinlə birlikdəyik».

Dövlət başçılarının geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Pakistan sənədlərinin imzalanması mərasimi olub. Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn mətbuata bəyanatlarla çıxış ediblər. Dövlət başçıları ölkələrimiz arasında əsrlər boyu davam edən dostluq və qardaşlıq münasibətlərini qeyd edərək, bu münasibətlərin ortaq tarixə, dinə, mədəniyyətə, ənənələrə söykəndiyini, hər iki dövlətin bir-birinə dərin rəğbət və etibar bəslədiyini, bir sıra regional və beynəlxalq məsələlərdə birgə baxışların olmasını vurğulayıblar.

Sonra Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn tərəfindən Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya Pakistanın ali dövlət mükafatı - «Hilal-e-Pakistan» ordeninin təqdim edilməsi mərasimi olub. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva «Hilal-e-Pakistan» ordeni ilə təltif edildiyi üçün Pakistan İslam Respublikasının Prezidentinə minnətdarlığını bildirib.

Martın 12-də Bakıda Azərbaycan-Pakistan biznes forumu keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn biznes forumda iştirak ediblər. Sonra Azərbaycan Ticarət və Sənaye Palatası və Pakistan Sənaye və Ticarət Palataları Federasiyası arasında Anlaşma Memorandumu imzalanıb.

Forum çərçivəsində Azərbaycan və Pakistan iş adamları arasında keçirilən ikitərəfli görüşlərdə kənd təsərrüfatı, sənaye, toxuculuq, səhiyyə və əczaçılıq, kimya sənayesi, ticarət, tikinti materialları, idman malları və məişət texnikası istehsalı, qida və mədənçıxarma sənayesi, turizm və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi, yeni əlaqələrin qurulması məsələləri müzakirə olunub.

## Trans-Anadolu təbii qaz boru xəttinin təməlqoyma mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Türkiyə Respublikasına işgüzar səfərə gəlib. Dövlətimizin başçısı Qars şəhərində Heydər Əliyev adına parkda ümummilli liderin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.*

Həmin gün Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qarsda Heydər Əliyev adına Peşə və Texniki Anadolu Liseyinin açılış mərasimində iştirak ediblər. Mərasimdə çıxış edən Prezident İlham Əliyev bildirib ki, bu liseyin məhz Qarsda açılması böyük məna daşıyır: «Bu məktəb atam - Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin adını daşıyır. Heydər Əliyev Türkiyə-Azərbaycan əlaqələrinin inkişafı üçün böyük xidmətlər göstərib, daim çalışıb ki, Türkiyə-Azərbaycan qardaşlığı möhkəm olsun».

Həmin gün Qarsda Trans-Anadolu təbii qaz boru xəttinin (TANAP) təməlqoyma mərasimi keçirilib. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan, Gürcüstan Prezidenti Georgi Marqvelaşvili, Avropa Komissiyasının vitse-prezidenti Maroş Şevçovic, Türkiyənin enerji və təbii sərvətlər naziri Taner Yıldız, Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və digər rəsmi şəxslər iştirak ediblər.

Mərasimdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, layihəyə imza atmaqla tarixi uğurlar əsasında gələcəyimizi qururuq: «Biz Türkiyə-Azərbaycan-Gürcüstan enerji, nəqliyyat, siyasi, iqtisadi formatı yaratdıq. Bu gün bu formatı genişləndiririk. Bu gün bu işə Yunanıstan, Bolqarıstan, Balkan ölkələri qoşulur. Balkan ölkələri gələcəkdə bizim qazımızı alacaqlar, Rumıniya və Macarıstan da bu layihələrə qoşula bilərlər. Çünki resurslar və «Cənub» qaz dəhlizinin ötürmə qabiliyyəti böyükdür. Çalışmalıyıq ki, maksimum öz qazımızla qonşu, dost ölkələri təmin edək. Bu layihələrdə iştirak edən ölkələr təbii müttəfiqlərə çevrilirlər. Bu ölkələrin tarixi, mədəniyyəti fərqidir. Ona görə də «Cənub» qaz dəhlizi tək iqtisadi deyil, həm də ciddi siyasi təşəbbüsdür, iqtisadi mənfəət gətirən layihədir».

# Dövlət başçısı İlham Əliyev Bərdə rayonunda olub

Martın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bərdə rayonuna səfər edib. Dövlətimizin başçısı əvvəlcə şəhərdə yeni salınmış Heydər Əliyev adına park-bulvarın açılış mərasimində iştirak edib, ümummilli liderin abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

Açılış mərasimində çıxış edən ölkə Prezidenti bildirib ki, bu kompleks Gəncə şəhərindəkindən sonra ən böyük mədəniyyət və istirahət mərkəzlərindən biridir. Uzunluğu 2400 metr olan park-bulvar kompleksi ilkin mərhələdə 47 hektar ərazini əhatə edir və gələcəkdə daha da genişləndiriləcək. aEni 36 metr, hündürlüyü 12 metr olan giriş qapısı milli memarlıq üslubunda ucaldılıb. Kompleksə əlavə 6 istiqamətdən giriş qapısı tikilib.

Sonra Azərbaycan Prezidenti Bərdədə 588 məcburi köçkün ailəsi üçün yeni salınmış yaşayış kompleksində yaradılan şəraitlə tanış olub. Bildirilib ki, kompleks dövlətimizin başçısının təsdiq etdiyi «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı»na əsasən inşa olunub. Yeni yaşayış kompleksinə Bərdədə yataqxanalarda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri köçürüləcək.

Buradakı mənzillərə, yeni məhəllənin sxeminə və maketinə baxan Prezident İlham Əliyevə məlumat verilib ki, 11 hektar sahəni əhatə edən yeni yaşayış kompleksində 588 mənzil, 640 şagird yerlik məktəb, 140 yerlik uşaq bağçası, ATS və digər inzibati binalar tikilib. Su, elektrik və qaz təchizatı şəbəkələri Bərdənin kommunikasiya şəbəkələrinə qoşulub. Kompleksin tikintisinə 2014-cü ilin iyun ayında başlanılıb və bu ilin mart ayında tam başa çatdırılıb. Dövlətimizin başçısı kompleksdəki məktəbdə və uşaq bağçasında da olub və burada yaradılan şəraitlə maraqlanıb.

Səfər çərçivəsində Prezident İlham Əliyev Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Bərdə regional «ASAN xidmət» mərkəzinin açılışında iştirak edib. Dövlət başçısına məlumat verilib ki, mərkəzin binasının inşasına 2014-cü ilin aprel ayında başlanılıb və bu ilin mart ayında başa çatdırılıb. Dördmərtəbəli binanın tikintisi ən yüksək standartlara uyğun həyata keçirilib. Bildirilib ki, «ASAN xidmət» mərkəzinin fəaliyyətindən, Bərdə də daxildə olmaqla, Ağdam, Ağcabədi, Laçın, Yevlax və Tərtər rayonlarının 800 minə yaxın sakini yararlanacaq.

Dövlətimizin başçısına «ASAN məktəb» layihəsi barədə də məlumat verilib. Bildirilib ki, Təhsil Nazirliyi tərəfindən həyata keçiriləcək layihə çərçivəsində ilkin mərhələdə məktəbə Bərdə rayonunda qəbul aparılacaq. Xatırladaq ki, digər mərkəzlərdə olduğu kimi, burada da internetə açıq olan kompüterlər qoyulub və vətəndaşların bütün növ elektron xidmətlərdən yararlanması üçün şərait yaradılıb. «ASAN xidmət» mərkəzində vətəndaşların gözləməsi və vaxtını səmərəli keçirməsi üçün funksional yardımçı xidmətlər -bank, sığorta, hüquqi yardım və tərcümə mərkəzləri, laboratoriya, tibbi xidmət, poçt şöbələri, fotostudiya fəaliyyət göstərir. Xüsusi terminallar vasitəsilə mobil rabitə, internet, işıq, su, qaz və digər kommunal xidmətlərin, kredit və sığorta ödənişlərinin həyata keçirilməsi mümkündür. Xidmət sistemi müasir İP telefon və İP şəbəkə ilə təmin edilib.



Azərbaycan Prezidenti mərkəzdə Bərdə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Dövlətimizin başçısı Bərdədə aparılan işlərdən razılığını bildirib, şəhərin müasirləşdiyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev martın 12-də Bərdə türbəsində aparılan təmir işlərinin gedişi ilə tanış olub, şəhər 1 nömrəli Uşaq İncəsənət Məktəbinin açılışında iştirak edib.

Dövlətimizin başçısı Bərdədə Qarabağ Aqrar Sənaye Parkının istifadəyə verilməsi mərasiminə də qatılıb. Güzəştli kreditlərdən istifadə edilməklə yaradılan Qarabağ Aqrar Sənaye Parkının tərkibinə 5 min tonluq logistik mərkəz, 4200 başlıq ətlik və südlük istiqamətli heyvandarlıq kompleksləri, illik 5,4 min ton istehsal gücünə malik ət kəsimi və emalı fabriki, saatda 10 ton yem istehsal edən zavod daxildir. Logistik mərkəzdə güzəştli kreditlər almış fermerlər tərəfindən istehsal olunan ət və tərəvəz məhsulları yüksək keyfiyyətlə saxlanılır və ilboyu əhalinin tələbatının ödənilməsinə yönəldilir. Ən son texnologiyalarla təchiz olunmuş ət kəsimi və emalı fabrikində heyvanların kəsilməsindən ət məhsullarının qablaşdırılmasına və istehlakçılara çatdırılmasınadək bütün proseslər gigiyenik normalar tam gözlənilməklə aparılır. Heyvandarlıq komplekslərində kənd təsərrüfatı avadanlıqları istehsalında dünyanın aparıcı şirkətlərinin müasir avtomatlaşdırılmış havalandırma, suvarma, qidalandırma sistemləri və digər ferma avadanlıqları quraşdırılıb. «Aqrolizinq» ASC vasitəsilə Avropadan gətirilmiş xüsusi cinslərdən olan ətlik-südlük inəklər bəslənilir.

Azərbaycan Prezidenti Bərdə rayonuna səfəri çərçivəsində Mollaisalar-Vəliuşağı-Mollaəhmədli-Sərkarlar avtomobil yolunun açılışında da iştirak edib.

2 Dünya Bankının nümayəndələri Vergilər Nazirliyində olmuşlar

3 Fiziki şəxslərin əmanətləri üzrə gəlir vergisi yeni qaydalarla hesablanır

5 Dünya Bankı Azərbaycanda sənaye layihələrinə dəstək verir

6 Məcburi dövlət sosial ödənişinin strukturu dəyişdiriləcək

# Dünya Bankının nümayəndələri Vergilər Nazirliyində olmuşlar



Mart ayının 12-də vergilər nazirinin birinci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Natiq Əmirov Dünya Bankının Azərbaycan üzrə ölkə iqtisadçısı Konqyan Tanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

N.Əmirov son dövrlərdə ölkəmizin vergi sistemində aparılan islahatlar haqqında qonaqlara məlumat vermiş, Dünya Bankı ilə birlikdə ortaq layihələrin həyata keçirilməsi və bu sahədə Vergilər Nazirliyinə texniki dəstəyin göstərilməsi istiqamətində görülən işlərdən danışmışdır. Qeyd olunmuşdur ki, Dünya Bankının Vergilər Nazirliyinə iki istiqamətdə - yerli idarəetmədə orqanınlarında Bələdiyyə Vergi İnformasiya Sisteminin yaradılması və iqtisadiyyatda nağdsız əməliyyatların stimullaşdırılması ilə bağlı texniki yardım göstərilməsi istiqamətində aparılan müzakirələr 2014-cü ildən başlanmışdır. Nağdsız əməliyyatların iqtisadiyyatın inkişafında və vergidən yayınmanın qarşısının alınmasında çox böyük rolu olduğunu vurğulayan vergilər nazirinin birinci müavini bu istiqamətdə hazırlanacaq layihənin reallaşdırılması üçün geniş imkanlar olduğunu qeyd etmişdir.

Konqyan Tan müzakirə edilən məsələ ilə əlaqədar bir sıra görüşlərin təşkil olunduğunu, Vergilər Nazirliyi ilə Dünya Bankının ABŞ-da yerləşən baş qərargahı arasında ötən ilin yayında Bakı şəhərində videokonfrans keçirildiyini xatırlatmışdır. K.Tan bildirmişdir ki, ilkin mərhələdə yalnız nağdsız əməliyyatların stimullaşdırılması sahəsində texniki yardımın göstərilməsi Dünya Bankı tərəfindən məqbul hesab edilmiş, bələdiyyələrlə bağlı texniki dəstək məsələsinə gələcəkdə baxılması nəzərdə tutulmuşdur. Razılaşmaya əsasən, Vergilər Nazirliyi Dünya Bankı ilə birlikdə «Nağdsız əməliyyatların stimullaşdırılması layihəsi» üzrə texniki yardım Sazişinin layihəsini hazırlamış və həyata keçirilən tədbirlərin maliyyələşdirilməsini Dünya Bankı öz üzərinə götürmüşdür. Bu tədbirlər nağd əməliyyatların məhdudlaşdırılması və nağdsız əməliyyatların stimullaşdırılması sahəsində ölkələr üzrə beynəlxalq təcrübənin araşdırılması və icmal-hesabatın hazırlanmasını, Azərbaycanda nağd və nağdsız əməliyyatlar sahəsində mövcud vəziyyətin və bu əməliyyatların büdcəyə təsirinin qiymətləndirilməsini, nağdsız əməliyyatların stimullaşdırılmasında vergi orqanlarının rolunun həm qanunvericilik, həm də inzibatçılıq baxımından müəyyənləşdirilməsini, qanunvericiliyə dair beynəlxalq təcrübə və mövcud vəziyyətin qiymətləndirilməsi əsasında təkliflərin hazırlanmasını əhatə edir. «Nağdsız əməliyyatların stimullaşdırılması layihəsi» üzrə texniki yardım Sazişinin Vergilər Nazirliyi, Mərkəzi Bank və Dünya Bankı tərəfindən imzalanması nəzərdə tutulur.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

# Büdcəyə vergi daxilolmalarında qeyri-neft sektorunun payı artmaqda davam edir

*Bu ilin yanvar-fevral ayları ərzində Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 1 milyard 104,77 milyon manat daxil olub, proqnoz tapşırığına 103,2 faiz əməl edilib. Qeyri-neft-qaz sektoru üzrə 666 milyon 635,9 min manat vəsait daxil olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,8 faiz çoxdur. Daxilolmaların strukturunda qeyri-neft sektorunun payı 60%-dən çox təşkil edib.*

Bir faktı xüsusi vurğulamağa dəyər ki, ilin əvvəlindən bəri dünya bazarlarında neftin qiymətinin kəskin aşağı düşməsinə, neft sektoru üzrə daxilolmaların nəzərəçarpacaq səviyyədə azalmasına baxmayaraq, vergi daxilolmaları üzrə proqnoza artıqlaması ilə əməl olunmuşdur.

Ümumiyyətlə, Azərbaycanda qeyri-neft sektoru üzrə büdcə daxilolmalarının dinamik artımı iqtisadi reallığın aparıcı tendensiyasını təşkil edir. Məsələn, 2014-cü ildə dövlət büdcəsinə 7 milyard 112 milyon manat məbləğində vergi daxilolmalarının 4 milyard 306 milyon 486,5 min manatı qeyri-neft-qaz sektorunun payına düşüb ki, bu da 2013-cü illə müqayisədə 14,5% çoxdur.

Fiziki şəxslərdən gəlir vergisi və məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların bazasının genişləndirilməsi, vergi daxilolmalarının yığım əmsalının artırılması, respublikanın şəhər və rayonları üzrə gəlir və xərclərin tarazlaşdırılması, neftdənkənar sahələrdə iqtisadi fəallığın artması, yeni müəssisələrin yaradılması və onların ödənişlərinin həcminin çoxalması qeyri-neft sektorundan dövlət büdcəsinə vergi daxilolmalarının artımında mühüm rol oynayır. 2014-cü ildə qeyri-neft sektorunu əhatə edən 160-dan artıq yeni müəssisə yaradılıb və 200-ə yaxın müəssisənin tikintisi işləri davam etdirilir. Bu tədbirlər qeyri-neft sektorunda istehsalın 7 faizdən çox artmasına mühüm təsir göstərib.

2015-ci ildə də həmçinin qeyri-neft sektorundan daxilolmaların həcminin artırılması hesabına ümumi büdcə gəlirlərinin təmin edilməsi nəzərdə tutulur. Belə ki, dövlət büdcəsi gəlirlərində qeyri-neft sektoru üzrə daxilolmaların 10%-dən çox artacağı proqnozlaşdırılır. Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 7 milyard 112 milyon manatın daxilolması proqnozlaşdırılır. Bunun 4 milyard 812 milyon manatı (67,7%) qeyri-neft sektorunun, 2 milyard 300 milyon manatı (32,3%) neft sektorunun payına düşür. 2014-cü illə müqayisədə qeyri-neft sektoru üzrə artımın 512 milyon manatdan çox olacağı gözlənilir.

Cari ildə vergitutma və sosial yığımların bazasının artırılması, müəssisələrdə iş yerlərinin rəsmiləşdirilməsi ilə bağlı tədbirlərin gücləndirilməsi, əmək müqaviləsi bildirişlərinin elektron informasiya sistemində qeydiyyatının aparılması, qeyri-leqal məşğulluqla mübarizənin həyata keçirilməsi qeyri-neft vergi daxilolmalarının həcminin artmasında mühüm rol oynamaqdadır. Müxtəlif sahələrdə yeni iş yerlərinin açılması, uçotdankənar iş yerlərinin leqallaşdırılması hesabına fiziki şəxslərin gəlir vergisi üzrə daxilolmaların həcminin 100 milyon manat (11,3%) artaraq 982 milyon manata çatdırılması nəzərdə tutulur.

Bütün bunlar dövlət büdcəsinin gəlirlərinin yığım əmsalının artırılması, mülkiyyət və yol vergiləri dərəcələrinin optimallaşdırılması, müxtəlif vergi növləri üzrə vergi bazasının genişləndirilməsi və vergidən yayınmaların qarşısının alınması istiqamətində həyata keçiriləcək məqsədyönlü tədbirlər nəticəsində mümkün olacaq.

**Büdcəyə qeyri-neft daxiolmalarının dinamikası**
*(min manatla)*




**Elbrus CƏFƏRLİ**

# Vergilər Nazirliyində görüş

Mart ayının 13-də vergilər nazirinin birinci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Natiq Əmirov Amerika Birləşmiş Ştatlarının Yayım Şurası idarə heyətinin beynəlxalq yayımlar üzrə bürosunun direktor müavini Cefrey Trimblin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə «Azadlıq Radiosu»nun Azərbaycan Respublikasındakı nümayəndəliyində aparılan vergi yoxlamaları ilə bağlı məsələlər müzakirə edilmiş, yoxlamanın detalları və aşkar edilmiş nöqsanlar barədə geniş fikir mübadiləsi aparılmışdır.

Cefrey Trimbl qəbula və müzakirələrə görə təşəkkürünü bildirmişdir.

# Vətəndaş müraciətlərinə diqqətlə yanaşılır

2015-ci ilin fevral ayı ərzində vergi orqanlarına 7909 müraciət daxil olmuşdur: bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 717 müraciət və ya 8,3% azdır. Müraciətlərin 42,1%-i kameral vergi yoxlamaları, 30,5%-i müxtəlif arayışların alınması, 8,6%-i vergi borcları, 1,8%-i səyyar vergi yoxlamaları, 1,4%-i operativ vergi nəzarəti (o cümlədən nağd hesablaşmaların aparılması qaydalarının pozulması), 0,5%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), 0,1%-i korrupsiya ilə əlaqədar hüquqpozmalar, 15%-i digər məsələlərlə bağlı olmuşdur.

Daxil olmuş müraciətlərin 63,7%-i müsbət həll edilmiş, 21%-i barədə müvafiq izahatlar verilmiş, 2,3%-i əsassız sayılmışdır.

2015-ci ilin fevral ayı ərzində Vergilər Nazirliyində müvafiq strukturların rəhbərləri və ya digər vəzifəli şəxsləri tərəfindən 128 vətəndaş qəbul edilərək, onlara qanunvericiliyin tələbinə uyğun köməklik göstərilmiş və ya müvafiq izahatlar verilmişdir.

Fevral ayının 20-də vergilər naziri tərəfindən Hacıqabul şəhərində 29 vətəndaş qəbul edilmişdir. Birbaşa nazirliyə aidiyyəti olan müraciətlərin bir hissəsi müsbət həll olunmuş, qalanları barədə müvafiq izahatlar verilmişdir.


## VERGİ ÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!

2014-cü ilin yekunlarına görə:

- Gəlir vergisinin ödəyiciləri olan rezident və qeyri-rezident fiziki şəxslər **gəlir vergisinin** bəyannaməsini;
- Mənfəət vergisinin ödəyiciləri olan rezident və qeyri-rezident hüquqi şəxslər **mənfəət vergisinin** bəyannaməsini;
- Əmlak vergisinin ödəyicisi olan müəssisələr **əmlak vergisinin** bəyannaməsini;
- Azərbaycan Respublikasının ərazisində 2014-cü ilin sonu vəziyyətinə mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan hüquqi şəxslər yol vergisinin bəyannaməsini

Cari ilin mart ayının 31-dən gec olmayaraq

**vergi orqanına təqdim etməyə, hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməyə borcludurlar.**

Bildiririk ki,

**Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 57-ci, 58-ci və 59-cu maddələrinə əsasən:**

- vergi hesabatını və vergi öhdəliyinin yaranmaması barədə arayışı müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının qərarına
- əsasən **40 manat** məbləğində;
büdcəyə çatası vergi məbləğini hesabatı təqdim etməməklə yayındırdıqda vergi ödəyicisinə yayındırılmış vergi məbləğinin **50%**-i miqdarında maliyyə sanksiyası tətbiq edilir;
- vergilər qanunla müəyyən edilmiş müddətdə ödənilmədikdə, bir ildən çox olmamaqla ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün, vergi ödəyicisindən ödənilməmiş vergi məbləğinin **0,1%**-i miqdarında faiz tutulur.

Əlavə məlumat üçün «195» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.

**Azərbaycan Respublikası Vergilər Nazirliyi**
www.taxes.gov.az • www.e-taxes.gov.az


# Azərbaycan beynəlxalq kredit reytinqini qoruyur

*Martın 13-də «Fiç Reytingz» (Fitch Ratings) beynəlxalq kredit agentliyi Azərbaycan Respublikasının uzunmüddətli yerli və xarici valyutada reytinqini «BBB-» investisiya səviyyəsində təsdiq edərək proqnozu «sabit» saxlamışdır.*



Agentliyin hazırladığı hesabatda qeyd olunur ki, dünyada neft qiymətlərinin kəskin enməsinin Azərbaycanın mövcud fiskal və xarici valyuta mövqeyinə neqativ təsirlərinə baxmayaraq, hökumət tərəfindən atılan təsirli addımlar dövlət maliyyəsinə və xarici valyuta ehtiyatları mövqeyinə mümkün riskləri azaldaraq ölkənin möhkəm xarici kreditor kimi yerini qoruyub saxlamasını təmin edəcəkdir.

Beləliklə, agentlik belə qənaətə gəlir ki, çevik fiskal və monetar siyasət xarici valyuta ehtiyatlarının azalmasının əhəmiyyətli dərəcədə qarşısını alacaq.

Qeyd olunanlarla yanaşı, «Fiç Reytingz» maliyyə davamlılığını təmin edəcək əlavə tədbirlərin və ölkə iqtisadiyyatının diversifikasiyası istiqamətində daha təsirli addımların atılmasını ölkənin gələcək reytinqinə müsbət təsir göstərəcək əlavə faktorlar kimi qiymətləndirib.

Aparıcı beynəlxalq kredit reytinq agentliyi tərəfindən Azərbaycan Respublikasına əvvəllər daha münbit iqtisadi şəraitdə verilmiş «BBB-» investisiya səviyyəli «sabit» proqnozlu dərəcənin bir daha təsdiqi ölkə iqtisadiyyatının dayanıqlıq potensialını nümayiş etdirməklə yanaşı, ona beynəlxalq maliyyə ictimaiyyəti tərəfindən etimadın yüksək olmasının əyani sübutudur.

**FƏXRİYYƏ**

# Fiziki şəxslərin əmanətləri üzrə gəlir vergisi yeni qaydalarla hesablanır

Vergi qanunvericiliyinə edilmiş son dəyişikliyə əsasən, fiziki şəxslərin banklardakı əmanətlərinin faiz gəlirlərinin vergiyə cəlb edilməsi ilə bağlı müxtəlif suallar səsləndirilməkdədir.

Azərbaycan Respublikasının 2013-cü il 27 dekabr tarixli «Banklar və digər kredit təşkilatları tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən faizlərin gəlir vergisindən azad edilməsi haqqında» Qanunu 31 dekabr 2014-cü il tarixədək qüvvədə olmuşdur. Bu qanunun qüvvədə olduğu müddət ərzində fiziki şəxslərin əmanətləri üzrə ödənilən faizlər Vergi Məcəlləsinin 123-cü maddəsi ilə nəzərdə tutulan ödəmə mənbəyində vergidən azad edilmişdir.

Həmin qanunun qüvvədən düşməsi ilə əlaqədar bu ildən Vergi Məcəlləsinin yeni - 102.1.22-ci maddəsi qüvvəyə minmişdir. Bu maddəyə əsasən, yerli bank və xarici bankın Azərbaycan Respublikasındakı filialı tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən illik faiz gəlirlərinin 500 manatadək olan hissəsi gəlir vergisindən azaddır. Qanunvericilikdəki bu azadolma hər bir bank (həmin bankın filialları da daxil olmaqla) tərəfindən ayrı-ayrılıqda tətbiq olunur. Yəni hər hansı bir bank tərəfindən qeyd olunan azadolma tətbiq edilərkən fiziki şəxsin başqa banklarda yerləşdirdiyi əmanətlərə görə aldığı faizlərin məbləği nəzərə alınmır.

Məsələn, əgər hər hansı fiziki şəxs 2015-ci il yanvarın 1-də yerli banka 1 il müddətinə illik 9% dərəcəsi ilə 10000 manat məbləğində əmanət yerləşdirmişdirsə, ilin sonunda fiziki şəxsə ödəniləcək faizlərdən ödəmə mənbəyində tutulmalı vergi aşağıdakı qayda ilə hesablanacaq:

10000 manat x 9% = 900 manat *(ödəniləcək faizin məbləği)*

(900-500) x 10% = 40 manat *(ödəmə mənbəyindən tutulan vergi).*

***Başqa bir misal:*** fiziki şəxs 15 mart 2014-cü il tarixdə yerli banka 1 il müddətinə illik 10% dərəcəsi ilə 40000 manat məbləğində əmanət yerləşdirmişdir. Müqavilədə faizlərin bir ilin tamamında götürülməsi nəzərdə tutulmuşdur. Bu halda, 15 mart 2015-ci ildə fiziki şəxsə ödəniləcək faizlərdən ödəmə mənbəyində tutulmalı vergi aşağıdakı qayda ilə hesablanacaq:

40000 manat x 10% = 4000 manat *(ödəniləcək faizin məbləği)*

Faiz gəlirlərinin yalnız 2015-ci il yanvarın 1-dən martın 15-dək dövrə düşən hissəsi vergiyə cəlb olunacaq:

4000 manat x 12 ay = 333,3 manat

333,3 manat x 2,5 ay = 833,25 manat

(833,25 manat - 500 manat ) x 10% = 33,3 manat *(ödəmə mənbəyindən tutulan vergi)*

***Daha bir misal:*** fiziki şəxs 1 yanvar 2015-ci il tarixdə bir yerli banka illik 12%-lə 20000 manat, digər yerli banka eyni tarixdə illik 11%-lə 15000 manat, üçüncü banka isə bir ay sonra - fevralın 1-də illik 7%-lə 5000 manat əmanət yerləşdirmişdir. Bütün müqavilələr 1 illik müddətə bağlanmışdır. Bu halda güzəşt fiziki şəxsin hər bir faiz gəlirinə ayrı-ayrılıqda tətbiq ediləcək:

20000 x 12 % - 500 manat =1900 manat x 10% = 190 manat

15000 x 11% - 500 manat = 1150 manat x 10% = 115 manat

5000 x 7% - 500 manat < 0 *(vergi tutulmur)*.

Fiziki şəxs yerli bankın iki ayrı-ayrı filialının hər birinə, məsələn, illik 12%-lə 20000 manat əmanət yerləşdirdiyi və 1 illik müddətə müqavilələr bağladığı halda isə əmanət eyni bankın iki ayrı-ayrı filialına yerləşdirildiyinə görə, güzəşt faiz gəlirinin cəminə tətbiq ediləcək:

40000 x 12 % - 500 manat = 4300 manat x 10% = 430 manat.

**Rəşad SADIQOV**

# «Elektron hökumət» sahəsində qabaqcıl təcrübələr

*Latviyanın paytaxtı Riqa şəhərində «Azərbaycan, Latviya və Estoniyanın «Elektron hökumət» sahəsində qabaqcıl təcrübələri» mövzusuna həsr edilmiş beynəlxalq seminar keçirilib.*

Üç ölkənin dövlət, özəl və QHT sektorlarını təmsil edən təşkilatların nümayəndələrinin iştirak etdiyi seminar Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən maliyyələşdirilən və Estoniyanın Elektron Hökumət Akademiyası tərəfindən həyata keçirilən «Azərbaycan və Estoniya - «Elektron hökumət» sahəsində iki lider ölkə» layihəsi çərçivəsində keçirilib.




Tədbirdə Azərbaycanda «Elektron hökumət» quruculuğu sahəsində əldə edilən nailiyyətlər, eləcə də «ASAN xidmət» mərkəzləri vasitəsilə dünya miqyasında yeni olan vətəndaşlara sosial yönümlü xidmətlərin göstərilməsi konsepsiyası barədə ətraflı məlumat verilib. Seminarda xüsusi maraqla qarşılanan mövzulardan biri elektron və mobil hökumət konsepsiyasının açar komponenti olan «Asan imza» mobil elektron imza xidməti və Azərbaycanda onun tətbiqi olub. Tədbir iştirakçıları «Asan imza» xidmətinin ölkədə istifadəsinin yayılmasını əks etdirən statistik göstəricilərlə tanış olublar. Vurğulanıb ki, 2013-cü ildə istifadəyə veriləndən bəri «Asan imza» dünyanın ən dinamik inkişaf edən mobil imza texnologiyası kimi tanınıb.

Bundan əlavə, tədbir iştirakçılarına mobil imza texnologiyasının tətbiqi zamanı ilk dəfə Azərbaycanda istifadə edilmiş «PPP» (public-private partnership, dövlət və özəl sektorların əməkdaşlığı) modeli barədə məlumat verilib.

# İcmal-hesabat nəşr olunub

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin hazırladığı icmal-hesabatda vergi sistemində son 15 ildə həyata keçirilmiş islahatlar, müasir vergi sisteminin vəziyyəti, nazirlik haqqında ümumi məlumat və s. məqamlar yer alıb. Kitabda dövlət büdcəsinin formalaşmasında Vergilər Nazirliyinin rolu, eləcə də nazirliyin strukturu barədə məlumatlar əks olunub, Azərbaycanda vergi qanunvericiliyi, Vergi Məcəlləsinə əsasən müəyyən edilən vergi növləri və dərəcələri barədə də geniş məlumat verilib. İnstitusional islahat proqramlarının da yer aldığı icmalda «Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi» Dövlət Proqramı, «Azərbaycan Respublikasında vergi sisteminin təkmilləşdirilməsi üzrə Tədbirlər Planı», «Vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsi üzrə 2009-2012-ci illər üçün Strateji Plan», «Vergi orqanları tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin inkişafı Konsepsiyası», «Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün Strateji Plan» üzrə görülən işlərə müfəssəl nəzər salınıb.




İcmalda nazirlik tərəfindən göstərilən elektron xidmətlər, vergilərin elektron qaydada ödənişi, elektron kitabxana, beynəlxalq vergi informasiya platforması və s. barədə oxucularda aydın təsəvvür yaradılır.

Məlumatlandırma vasitələri və xidmət kanallarına həsr olunmuş bölümdə qeyd edilib ki, vergilərin könüllü ödənilməsi səviyyəsinin artırılması istiqamətində nazirliyin əsas vəzifəsi vergi ödəyicilərinə müasir səviyyədə xidmətlərin göstərilməsi, məlumatlandırılma, maarifləndirilmə və təbliğat işlərinin gücləndirilməsidir. Vergi ödəyicilərinə təqdim olunan əsas məlumat və xidmət kanalları - nazirliyin rəsmi internet səhifəsi və sosial şəbəkələrdəki səhifələri, Çağrı Mərkəzi, vergi ödəyicilərinə xidmət mərkəzləri, görüşlər, ünvanlı xidmətlər, sərgilər, müxtəlif tədbirlər, vergilər mövzusunda nəşrlər, «Vergi dostları» şəbəkəsi, metodiki kabinetlər bu sahədə xüsusi əhəmiyyət daşıyır.

İcmalda nazirliyin beynəlxalq əməkdaşlıq sahəsində gördüyü işlərə geniş yer ayrılıb. Avropa İttifaqı, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Avropadaxili Vergi Administrasiyaları Təşkilatı, MDB iştirakçısı olan dövlətlərin Vergi xidmətləri rəhbərlərinin, MDB iştirakçısı olan dövlətlərin Vergi təhqiqatları orqanları rəhbərlərinin Koordinasiya Şurası və s. qurumlar ilə Vergilər Nazirliyi arasındakı işgüzar əlaqələr diqqətə çatdırılıb.

**AYTƏN**






Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

# Ekoloji vergi və onun növləri

Ekoloji vergilər, demək olar ki, dünyanın iqtisadi cəhətdən inkişaf etmiş əksər ölkələrində tətbiq olunur. Bu verginin tətbiqi məsələsi ilk dəfə olaraq, Avropa İttifaqının ətraf mühitin qorunması ilə bağlı tədbirlərə dair 1973-cü ildə qəbul etdiyi 1-ci Proqramda öz əksini tapmışdır. İttifaqa daxil olan ölkələrdə ətraf mühitin qorunmasının idarə olunmasında inzibati metodlardan iqtisadi metodlara keçidlə əlaqədar ötən əsrin 80-ci illərinin ortasından başlayaraq, ekoloji verginin tətbiqi məsələsinə diqqət daha da artmışdır.

Ətraf mühitin qorunmasının iqtisadi cəhətdən stimullaşdırılmasını nəzərdə tutan ekoloji vergilərin tətbiqi zamanı iqtisadi səmərəliliyin təmin olunması üçün həm vergi yükünün mütənasib olaraq azaldılması, həm də məşğulluğun artırılması və yerli istehsalçıların rəqabət qabiliyyətliliyinin gücləndirilməsi diqqət mərkəzində olmalıdır.

Avropanın inkişaf etmiş dövlətləri arasında ekoloji vergilərin tətbiqi sahəsində daha zəngin təcrübə Skandinaviya ölkələrinə məxsusdur. Ötən əsrin 90-cı illərinin ortasından başlayaraq Böyük Britaniya, Fransa, İtaliya və Almaniya da bu sahəyə diqqəti artırmışlar.

Qeyd etmək lazımdır ki, ekoloji vergilərin tətbiq olunması büdcə gəlirlərinin artırılmasına deyil, müstəsna olaraq ətraf mühitin qorunmasına xidmət edir. İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatına daxil olan və ətraf mühitin qorunmasının səmərəli mexanizmini tətbiq edən Avropa ölkələrində ekoloji vergilərin rolu çox böyükdür. Bu ölkələrdə ekoloji vergilər büdcə gəlirlərinin əsasını təşkil etməklə yanaşı, daha çox ətraf mühit üçün təhlükə yaradan fəaliyyətlər üzrə tətbiq olunur. Avropa Komissiyasının Vergi və Gömrük Rüsumları üzrə müdiriyyəti ekoloji vergiləri vergitutma obyektinə görə 7 qrupa bölmüşdür:

*Ekoloji vergilərin tətbiqində əsas məqsəd dövlət büdcəsinin gəlirlərlə təmin edilməsindən deyil, vergi ödəyicilərinin ətraf mühitin qorunması məsələlərində pozitiv davranışının stimullaşdırılmasından ibarətdir*

- yanacağa və elektrik enerjisinə tətbiq olunan ekoloji vergilər;
- avtonəqliyyat vasitələrinin alınmasına və yollardan istifadəyə görə tətbiq olunan ekoloji vergilər;
- atmosferin və su hövzələrinin çirkləndirilməsinə görə tətbiq olunan ekoloji vergilər;
- tullantıların yerləşdirilməsinə görə tətbiq olunan ekoloji vergilər;
- səs-küyün yaradılmasına görə tətbiq olunan ekoloji vergilər;
- təbii resurslardan istifadəyə görə tətbiq olunan ekoloji vergilər;
- atmosferin azon qatının dağılmasına səbəb olan zərərli maddələrin buraxılmasına görə tətbiq olunan ekoloji vergilər.

Avropada nəqliyyat vasitələrinə və yanacağa görə tətbiq olunan vergilər daha geniş yayılmışdır. Bu vergilər mahiyyət etibarı ilə fiskal funksiya daşısa da, onun tətbiqi həm də ətraf mühitin qorunmasına müsbət təsir göstərir.

Amerika Birləşmiş Ştatlarında da ətraf mühitin qorunmasına böyük diqqət göstərilir. Bu ölkədə su hövzələrinin neft məhsulları ilə çirkləndirilməsinə, maye maddələr üçün nəzərdə tutulan və ikinci dəfə istifadəyə yararsız olan zəhərli materiallardan taraların hazırlanmasına, yanacağa və nəqliyyat vasitələrinə qoyulan vergilər daha geniş yayılmışdır.

Ekoloji vergi növlərindən enerji daşıyıcılarına tətbiq olunan vergilər daha çox maraq kəsb edir. Misal üçün: Hollandiyada neft məhsullarından, qaz və kömürdən istifadəyə görə verginin dərəcəsi belə yanacaqlardan istifadə zamanı atmosferə buraxılan zəhərli maddələrin miqdarından asılı olaraq müəyyən edilir. Onu da qeyd etmək lazımdır ki, benzin, dizel yanacağı ekoloji vergi ilə yanaşı, əlavə olaraq, aksizə də cəlb olunur.

Beynəlxalq təcrübədə ekoloji vergilər təyinatına görə, adətən, aşağıdakı növlərə bölünür:

- ekologiyanın qorunmasına çəkilən xərclərin kompensasiyası məqsədilə təbii resurslardan və ekoloji xidmətlərdən istifadəyə görə tutulan vergilər (misal üçün, sudan istifadəyə, tullantıların yerləşdirilməsinə görə və s.);
- istehsalçı və istehlakçıların ekologiyanın qorunmasında iştirakını stimullaşdıran vergilər;
- müstəsna olaraq fiskal funksiya daşıyan və büdcənin təmin olunmasına xidmət edən vergilər.

Yuxarıda qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, ekologiya vergilərinin bəzilərinin fiskal funksiya daşımasına baxmayaraq, onların tətbiq olunmasında əsas məqsəd dövlət büdcəsinin gəlirlərlə təmin edilməsindən deyil, vergi ödəyicilərinin ətraf mühitin qorunması məsələlərində pozitiv davranışının stimullaşdırılmasından ibarətdir. Belə ki, ölkənin qanunvericiliyinə uyğun olaraq dövlət büdcəsinə daxil olan ekoloji vergilərin əsas hissəsi təbiətin qorunmasının stimullaşdırılmasına, tullantıların utilizasiyasına, tullantısız texnologiyaların hazırlanıb tətbiq olunmasına və təbiətin qorunması ilə bağlı digər ekoloji proqramların maliyyələşdirilməsinə yönəldilir.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Əmək müqaviləsinə xitam verilməsi

***İş yerinin ixtisar edilməsi ilə əlaqədar çalışdığım müəssisə tərəfindən əmək müqaviləsinə xitam verilmişdir. Mənə ödənilmiş müavinətdən gəlir vergisi tutulmalıdırmı?***

Əmək Məcəlləsinin 70-ci maddəsinin «b» bəndinə müvafiq olaraq, işçilərin sayı və ya ştatları ixtisar edildikdə əmək müqaviləsi işəgötürən tərəfindən ləğv edilə bilər. Həmin Məcəllənin 77-ci maddəsinin 3-cü hissəsinə əsasən, əmək müqaviləsi 70-ci maddənin «a» və «b» bəndləri ilə ləğv edilərkən işçilərə orta əməkhaqqından az olmamaqla işdənçıxarma müavinəti və işdən çıxarıldığı gündən yeni işə düzələn günədək ikinci və üçüncü aylar üçün orta əməkhaqqı ödənilir.

Vergi Məcəlləsinin (VM) 97.1-ci maddəsinə əsasən, rezident vergi ödəyicisinin gəliri onun Azərbaycan Respublikasında və Azərbaycan Respublikasının hüdudlarından kənarda əldə etdiyi gəlirdən ibarətdir. VM-in 98.1-ci maddəsinə əsasən, əməkhaqqı, bu işdən alınan hər hansı ödəmə və ya fayda, o cümlədən əvvəlki iş yerindən, yaxud gələcək muzdlu işdən alınan gəlir fiziki şəxs tərəfindən muzdlu işlə əlaqədar alınan gəlir hesab edilir və həmin Məcəllənin 101-ci maddəsində nəzərdə tutulmuş qaydada gəlir vergisinə cəlb edilir. Fiziki şəxslərin gəlir vergisindən azadolmalar və güzəştlər də VM-in 102-ci maddəsi ilə müəyyən edilmişdir: 102.1.4-cü maddəyə əsasən, işçilərin sayının və ştatların ixtisar edilməsi ilə əlaqədar əmək müqaviləsinə xitam verildikdə işçilərə Azərbaycan Respublikasının Əmək Məcəlləsinə müvafiq ödənilən təminatların gəlir vergisindən azad edilməsi nəzərdə tutulmuşdur.

Bundan əlavə, Əmək Məcəlləsinin 77-ci maddəsinin 1-ci hissəsinə əsasən, işçilərin sayı azaldıqda və ya ştatları ixtisar olunduqda həmin Məcəllənin 70-ci maddəsinin «b» bəndi ilə işəgötürən əmək müqaviləsini ləğv etməzdən azı iki ay əvvəl işçini rəsmi xəbərdar etməlidir. Bu Məcəllənin 77-ci maddəsinin 4-cü hissəsində qeyd olunub ki, işəgötürən bu maddənin birinci hissəsi ilə və bu Məcəllənin 56-cı maddəsinin ikinci hissəsi ilə müəyyən edilmiş xəbərdarlıq müddətləri əvəzinə işçiyə onun razılığı ilə azı iki aylıq əməkhaqqını birdəfəyə ödəməklə müvafiq əsasla əmək müqaviləsinə xitam verə bilər. Buna əsasən, Əmək Məcəlləsinin 77-ci maddəsinin 4-cü hissəsinə müvafiq olaraq, işəgötürən tərəfindən xəbərdarlıq müddətləri əvəzinə işçiyə azı iki aylıq əməkhaqqı ödənildiyi halda, bu ödəmə işçinin işlədiyi dövrdə aldığı əməkhaqqına bərabər tutularaq ümumi qaydada gəlir vergisinə cəlb edilir.

# Borcun idarə edilməsi sahəsində fəaliyyətin qiymətləndirilməsi

*İspaniya Krallığının paytaxtı Madrid şəhərində Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) Vergi borclarının idarə edilməsi üzrə işçi qrupunun yeddinci iclası keçirilmişdir.*

«Borcun idarə edilməsi sahəsində fəaliyyətin qiymətləndirilməsi» mövzusuna həsr olunmuş tədbirdə gündəlikdəki məsələ ilə bağlı ayrı-ayrı ölkələrin yanaşmaları və bu yanaşmaların operativ, strateji və işçi səviyyələrdə həyata keçirilməsi, fəaliyyətin qiymətləndirilməsinin metod və vasitələri müzakirə edilmişdir.

İspaniya, Bolqarıstan, Niderland, Azərbaycan, Lüksemburq, Portuqaliya vergi administrasiyalarının nümayəndələri tərəfindən qiymətləndirmə göstəriciləri, hədəflər, vasitələr, istifadə olunan texnologiyalar barədə təqdimatlar edilmiş, eləcə də keyfiyyət və kəmiyyət göstəriciləri arasında balans yaradılması, bunlardan birinin digərinə üstünlüyü barədə ətraflı müzakirələr aparılmışdır.

Tədbir çərçivəsində borcun idarə olunması sahəsində fəaliyyətin qiymətləndirilməsinin nəticələrinin istifadə olunması istiqamətində müzakirələr aparılmışdır. Birləşmiş Krallıq və Norveç vergi administrasiyalarının nümayəndələri mənsub olduqları ölkələrin məsələ ilə bağlı yanaşmalarını təqdim etmişlər.

Tədbirin sonunda 2015-ci il sentyabrın 30-dan oktyabrın 2-dək Avstriyanın paytaxtı Vyana şəhərində keçirilməsi nəzərdə tutulan səkkizinci görüşün mövzusu barədə fikir mübadiləsi aparılmışdır.

Tədbirdə Azərbaycan Vergilər Nazirliyinin 9 saylı Ərazi Vergilər İdarəsinin Vergi borclarının alınması şöbəsinin əməkdaşı Zehralı Talıbov iştirak etmişdir.

# İKT klubu üzvlərinə «Asan imza» hədiyyə olunub

Azərbaycan Qadınlarının ilk peşəkar İKT klubunun (FEMMES DIGITALES) təsisçilərinə və üzvlərinə «Asan imza» mobil elektron imza sertifikatları hədiyyə edilib. Klubun üzvlərinə «Asan imza» mobil elektron imza xidməti haqqında geniş məlumat verilərək gündəlik həyatda bu xidmətdən harada və necə istifadə edilməsinə dair geniş təqdimat da təşkil olunub.

Qeyd edək ki, «Asan imza» Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Vergilər Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, ölkədə fəaliyyət göstərən mobil şəbəkə operatorları və mobil imza xidmətinin operatoru və sistem inteqratoru olan «B.EST Solutions» şirkəti tərəfindən həyata keçirilən mobil elektron imza xidmətidir.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2015-ci ilin yanvar-fevral aylarında Azərbaycanda ümumi daxili məhsul (ÜDM) əvvəlki ilin eyni dövrü ilə müqayisədə **4,2%** artaraq **7,1 milyard manat** olmuşdur.
- Cari ilin ilk iki ayında ÜDM-in **66,6%-i** iqtisadiyyatın qeyri-neft-qaz sahələrində istehsal olunmuş və əvvəlki ilin eyni dövrü ilə müqayisədə **5,1%** artmışdır. Məhsula və idxala xalis vergilər ÜDM-in **10,4%-ni** təşkil etmişdir.
- 2015-ci ilin yanvar-fevral aylarında ölkə sənayesinin təsərrüfat subyektləri tərəfindən **3,7 milyard manatlıq** məhsul istehsal olunaraq **2,3%-lik** artım qeydə alınmışdır.

# Reklam bazarı yeni qanunvericiliklə tənzimlənəcək

Ötən həftə Milli Məclisdə «Reklam haqqında» yeni qanun layihəsinin müzakirələri başlanmışdır. Millət vəkilləri bu qanunun iqtisadiyyat üçün çox vacib olduğunu qeyd ediblər. Bildirilib ki, ölkəmizdə «Reklam haqqında» Qanunun qəbulundan 17 il ötür və o dövrün şərtlərinə uyğun olaraq qəbul edilmiş qanun müasir dövrün tələblərinə cavab vermədiyindən yeni qanuna ehtiyac yaranıb.



Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri Ziyad Səmədzadənin sözlərinə görə, reklam insanların hər gün üzləşdiyi prosesdir və bu prosesdə həm dilimizin, həm milli iqtisadiyyatın qorunması vacibdir. Yeni qanun bütün mütərəqqi tələblərə cavab verməli, vətəndaş cəmiyyətinin inkişafına, istehsalçı və istehlakçıların hüquqlarının qorunmasına xidmət etməlidir. Buna görə də qanun layihəsinin ictimai müzakirələrində səsləndirilən əksər təkliflər nəzərə alınıb.

Qanun layihəsində sosial reklam anlayışı, onun hazırlanması və müəyyən olunması qaydalarına aydınlıq gətirilib. Layihədə sosial reklam məsələsi daha anlaşıqlı şəkildə verilib, onun dövlət büdcəsindən maliyyələşən reklam istehsalçıları, reklam yayıcıları və agentləri tərəfindən ödənişsiz, özəl qurumlar tərəfindən isə ödənişli istehsal edilməsi və yayımlanması təsbit olunub. Müəyyən edilib ki, bütün reklam yayıcıları ümumi reklam vaxtının, nəşrlərdəki reklam yerlərinin və reklam qurğularının ümumi sahəsinin 8%-ni sosial reklam üçün ayırmağa borcludur. Mövcud qanunvericilikdə bu rəqəm 5% miqdarında müəyyənləşdirilib. Teleradioda sosial reklamın yayımlanmasının vaxt çərçivəsi də müəyyən edilib - səhər saat 9-dan gecə saat 12-yə kimi. Televiziya və radio şirkətlərinin maraqları nəzərə alınaraq sosial reklamın müddətinin reklam üçün ayrılan efir vaxtına daxil edilmədiyi də göstərilib. Qanun layihəsindəki bu maddələrin sosial reklam vericiləri ilə həmin reklamın yayıcıları arasında maraqların toqquşmasını aradan qaldıracağı gözlənilir.

Bundan başqa, reklamın televiziya tamaşaçıları və radio dinləyicilərinə həm müsbət, həm də mənfi təsiri araşdırılaraq yayımlanma tezliyi məsələsinə də yenidən baxılıb. Bu məsələdə işçi qrup mütəxəssislərlə, nazirliklərlə məsləhətləşmələr aparıb, reklamın insanlar tərəfindən optimal qavranılması, psixikaya mənfi təsirinin qarşısının alınması üçün intervallar müəyyənləşdirilib.

Millət vəkili Vahid Əhmədov bildirib ki, qanun layihəsində alkoqollu içkilərin reklamına da yeni yanaşma tətbiq edilib: «Dünyanın əksər ölkələrində bu məsələyə fərqli yanaşma var. Alkoqollu içkilərin reklamı tündlük məsələsindən asılı olaraq fərqləndirilir. Qlobal telekommunikasiya məkanında məhdudiyyət qoyulması imkan xaricindədir və istənilən nəticəni vermir. Yeni qanun layihəsində, başqa ölkələrdə olduğu kimi, tündlüyü yalnız 5%-dən yuxarı olan alkoqollu içkilərin reklamına vaxt məhdudiyyəti qoyulub, onların reklamının dövri nəşrlərin yalnız üz və arxa qabığında yerləşdirilməsi qadağan edilib».

Millət vəkili bildirib ki, qanun layihəsinə reklam sahəsində qiymətlərin tənzimlənməsi barədə yeni maddə əlavə edilib. Bu maddəyə əsasən, qiymətlər reklam subyektlərinin özü tərəfindən müqavilə əsasında sərbəst təyin edilir ki, bu da bazar münasibətlərinə daha uyğun hesab olunur.

**Rəşad SADIQOV**

# İnternet və reklam

*Digər reklam vasitələri ilə müqayisədə internet reklamının bir sıra üstünlükləri var. Çap reklam vasitələrindən fərqli olaraq, veb səhifədəki bir reklam sahəsində eyni anda müxtəlif istifadəçilərə fərqli reklamlar təqdim oluna bilər.*

Çap və televiziya kimi ənənəvi reklam vasitələrində reklama neçə nəfərin baxdığı haqda dəqiq məlumat əldə etmək çətindir. İnternet reklamını isə neçə nəfərin gördüyünü və görənlərdən neçəsinin bu reklam vasitəsilə veb səhifəyə keçdiyini canlı izləmək mümkündür. Canlı izləmə daha effektiv qiymətləndirmə üsulunü - canlı qiymətləndirməni mümkün edir

Azərbaycanda internetin inkişafı bu sahədə reklam bazarını da canlandırıb. Xüsusilə ölkədə sosial medianın və internet media sektorunun sürətli inkişafı internet reklam bazarının inkişafına təkan verir. Əksər Azərbaycan internet resursları statik və ənənəvi - müddət ilə qiymətləndirilən reklam sahələri satırlar. Ölkənin internet reklam bazarının əsas iştirakçısı - «New Media» şirkətinin baş direktoru Rasim Davudovdan Azərbaycan internet reklam bazarının cari vəziyyəti, rəqabət mühiti, istifadə olunan reklam texnologiyaları və reklamın həcmi ilə bağlı məsələlərə aydınlıq gətirməyi xahiş etdik. Onun sözlərinə görə, internet saytlarında reklam qiymətləri tam şəffafdır və bütün reklamverənlər üçün qiymət eynidir. İnternet reklam bazarında sərbəst rəqabət mövcuddur: «Azərbaycanda internet reklam bazarı ənənəvi media ilə müqayisədə yeni formalaşır. Buna baxmayaraq, hazırda ən dinamik inkişaf edən mediadır. İnternet reklam bazarında sərbəst rəqabət mövcuddur. Peşəkar reklam satış evləri formalaşıb.



Orta səviyyəli internet resurslarının reklam əldə etməklə bağlı problemləri var. Saytların trafiki az olduğundan reklam verərkən cüzi gəlir əldə etmiş olurlar. Bu da reklam bazarının həcminin kiçik, televiziya reklamının ucuz olması ilə əlaqədardır. Beş ildən artıqdır fəaliyyət göstərən «New Media» şirkəti peşəkar reklam satış evi olaraq 20 saytın reklam hüququna sahibdir. Reklam hüququnu alacağımız saytları seçdikdə bir çox amillər nəzərə alınır - saytın statistikası, məzmunu, auditoriyası, dizaynı və s. Müştərilərə reklam bannerləri üzrə tam statistika verilir (reklam bannerinə baxış sayı, bannerə kliklərin sayı və reach). Başqa agentliklər isə «New Media» şirkətinin nəzarətində olan saytlara reklam vermək istərkən həmin agentliklərin büdcələrinə uyğun olaraq endirimlər tətbiq olunur».

Reklam verən şirkətlərin, agentliklərin saytlara nəzarəti mümkün deyil. Saytlar məzmunun yaradılması, onun geniş kütləyə çatdırılması ilə, reklamverənlər isə öz məhsullarını, xidmətlərini saytlar vasitəsilə müştərilərinə çatdırırlar və bu əməkdaşlıq zamanı heç bir nəzarətdən söhbət gedə bilməz.

Yerli internet reklam bazarının illik həcmi təxminən 7 milyon manat civarındadır: «Bu məbləğin 35%-i «Google» və «Facebook» reklamına gedir. İnternet reklam bazarı müsbət dinamika ilə artır və artım tempinə görə digər media növlərini geridə qoyur. Reklam bazarının həcminin artması nəticəsində reklam qiymətlərinin də artımı gözləniləndir».

Texnologiyaların sürətli inkişafı, internet radio və televiziyanın populyarlaşması internet reklamı anlayışının əhatə dairəsini əhəmiyyətli şəkildə genişləndirir. Azərbaycan üçün hələ gənc olan internet reklamçılığının elektron ticarətin genişlənməsi ilə yeni vüsət alacağı gözlənilir. Bunun üçünsə istər qanunvericilik bazasının yaradılması və tətbiqi, istərsə də texnoloji imkanlardan qanun çərçivəsində istifadə baxımından hazırlıqlı olmaq zəruridir.

**Fəxriyyə İKRAMQIZI**

# Nəzarət tədbirləri gücləndirilir

*Respublikamızda aparılan ardıcıl islahatlar idarəetmənin təkmilləşdirilməsinə, səmərəli və peşəkar dövlət qulluğunun, vətəndaş-məmur münasibətlərində yeni düşüncə tərzinin formalaşdırılmasına, dövlət qulluğunun xalqa qulluq mənasını ifadə etməsinə, məsuliyyətli, yaradıcı, dövlətinə və xalqına sadiq kadr potensialının formalaşdırılmasına xidmət edir.*

Qiymətləndirmə və nəzarət sistemində də zəruri dəyişikliklərin edilməsi, nəzarət tədbirlərinin gücləndirilməsi şəffaflıq və keyfiyyəti ön plana keçirir.

Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən bir sıra dövlət qurumlarında 2014-cü ildə aparılmış maliyyə nəzarəti tədbirlərinin nəticələri açıqlanıb. Risklərin qiymətləndirilməsinin nəticələrinə əsasən tərtib olunmuş iş planına uyğun olaraq, dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlarda ötən il aparılmış nəzarət tədbirləri ilə 14 rayonun (şəhərin) icra hakimiyyəti başçılarının aparatlarının saxlanılmasına, rayonların (şəhərlərin) abadlığına, yolların, mənzil fondunun və büdcə təşkilatlarının yerləşdikləri binaların əsaslı və cari təmirinə, şəhərlər (kəndlər və qəsəbələr) üzrə ərazi nümayəndəliklərinə, mənzil kommunal təsərrüfatı qurumlarına, həmçinin 14 təhsil, 7 tibb, 1 mədəniyyət, 2 meliorasiya müəssisəsinə və 2 diplomatik nümayəndəliyə dövlət büdcəsindən ayrılan vəsaitlərin təyinatı üzrə xərclənməsi, habelə Maliyyə Nazirliyinin 5 yerli maliyyə orqanının yerli gəlir və xərclərin tərtibi və icrası üzrə işləri araşdırılmışdır.

Aparılmış yoxlamalar nəticəsində aşkar olunmuş nöqsanların aradan qaldırılması və belə nöqsanlara digər təşkilatlarda yol verilməsinin qarşısının alınması məqsədi ilə, habelə nöqsanlara yol verilməsində təqsiri olan vəzifəli şəxslər barəsində tədbirlər görülməsi üçün müvafiq yerli icra hakimiyyəti orqanlarına və aidiyyəti nazirliklərə məktublar göndərilmişdir.

Nəzarət tədbirləri nəticəsində büdcə təşkilatlarında maliyyə qaydalarının pozulmasına yol vermiş vəzifəli şəxslər barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 204-1-ci maddəsinə əsasən inzibati tənbeh tədbiri qismində cərimələr tətbiq edilmiş, ümumilikdə 914 nəfər vəzifəli şəxs 516,6 min manat məbləğində cərimə edilmiş və həmin məbləğin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir.

Xidmətin mütəxəssisləri tərəfindən 6 milyon 27,2 min manat məbləğində israfçılıq halları aşkar olunaraq yoxlama materialları müvafiq tədbirlər görülməsi üçün Baş Prokurorluğa göndərilmişdir.

**F.İKRAMQIZI**

# Qeyri-neft məhsullarının ixracı stimullaşdırılır



Milli valyutanın dollar və avro qarşısında devalvasiyası ixracla bağlı bir sıra rasional addımların atılmasını gündəmə gətirir. İqtisadiyyat və Sənaye Nazirliyinin (İSN) Sahibkarlığın inkişafı sektorunun rəisi Zaur Əliyevin sözlərinə görə, Azərbaycan sahibkarlarının Avropa bazarlarına çıxışı üçün normal şərait mövcuddur. Respublikamız bir neçə il əvvəl «Ümumiləşdirilmiş Preferensiyalar Sistemi» Proqramına (GSP) qoşulub. Proqramda nəzərdə tutulan meyarların tətbiqi Azərbaycan üçün təqribən 7200 mal mövqeyi üzrə Avropa İttifaqı bazarlarına güzəştli şərtlərlə ixrac imkanı yaradır ki, bu da respublikamızın ixrac potensialının genişləndirilməsi və ixracın strukturunun şaxələndirilməsi baxımından əhəmiyyətlidir. Dövlət bu istiqamətdə daha səmərəli ixrac siyasəti tətbiq etməyi düşünür. Yaxın vaxtlarda qeyri-neft məhsullarının ixracının stimullaşdırılmasına dair tədbirlər planının qəbul edilməsi gözlənilir ki, bu da ixrac prosesinin təkmilləşdirilməsinə xidmət edəcək.

Bununla yanaşı, milli ixracın stimullaşdırılması məqsədilə sahibkarlıq subyektlərinin idxal və ixrac əməliyyatında tələb olunan sənəd və prosedurların sayının azaldılması, ixracdakı hesablamaların daha da sadələşdirilməsi, ixracatçılar üçün daha münasib şəraitin yaradılması ilə bağlı tədbirlər davam etdirilir.

Yaxın vaxtlarda bir sıra normativ-hüquqi aktlara dəyişiklik ediləcək ki, bu da idxal-ixrac zamanı gömrük nəzarətinin həyata keçirilməsi üçün sənədləşmənin asanlaşmasına səbəb olacaq. Yerli sahibkarlardan cəmi iki sənəd (nəqliyyat sənədi və bəyannamə) tələb olunacaq, bununla da sənədlərin sayı idxalda 11-dən 2-yə, ixracda isə 8-dən 2-yə endiriləcək. Ümumilikdə ixrac üçün tələb olunan sənədlərin sayı azalaraq 19-dan 4-ə salınacaqdır.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) rəhbəri Rüfət Məmmədov bildirib ki, respublikamız hazırda dünyanın 150 ölkəsi ilə ticarət əməliyyatları həyata keçirir. Ötən il Azərbaycan 110 ölkəyə mal ixrac edib, 137 ölkədən isə məhsul idxal olunub. Xarici ticarət əlaqələri iştirakçılarının 45-i Avropa, 33-ü Amerika, 43-ü Asiya ölkələri və digərləridir. İxrac edilmiş məhsulların ümumi həcmində xam neft, neft məhsulları üstünlük təşkil etsə də meyvə-tərəvəz, bitki və heyvan mənşəli yağ və digər məhsullar, şəkər, kimya, məişət sənayesi mallarının həcmi də az olmayıb. Əvvəlki illə nisbətdə qeyri-neft məhsullarının ixracı 10-12% artıb və 1,7 milyard dollar təşkil edib. Hər nəfərə düşən qeyri-neft məhsullarının ixracı 181,6 dollara bərabər olub. 2015-ci ilin yanvar ayında Azərbaycan qeyri-neft məhsullarının ixracını 16%, fevralda 18,4% artırıb.

Buna baxmayaraq, qeyri-neft məhsullarının hazırkı ixrac göstəricisi hökuməti qane etmir və bu rəqəmin ən azı 4-5 dəfə artırılması nəzərdə tutulur. Yaxın 7-8 ildə qeyri-neft sektoru üzrə adambaşına düşən ixrac həcminin 1000 dollara çatdırılması planlaşdırılır.

AZPROMO rəhbəri hesab edir ki, yeni məzənnə dəyişiklikləri milli iqtisadiyyatın rəqabət imkanlarının artmasına və şaxələndirilməsinə əlavə stimullar yaratmaqla bağlı siyasətin tərkib hissəsidir. Özəl sektorda çalışan sahibkarlar bundan sonra regionlarda müasir tələblərə cavab verən və yüksək texnologiyalarla təchiz olunan yeni sənaye və emal müəssisələrinin açılması, dünya bazarlarına rəqabətədavamlı məhsulların çıxarılması üçün daha səylə çalışmalı, gələcək ixrac bazarları barədə düşünməlidirlər. İş adamlarına istehsal yönümlü müəssisələrin açılması üçün güzəştli kreditlərin verilməsi, investisiyaların cəlbinə mane olan bürokratik amillərin aradan qaldırılması, elektron xidmətlərin həcminin genişləndirilməsi görüləcək tədbirlər sırasındadır. Məqsəd ölkədə rəqabətədavamlı malların istehsalının artırılması və xarici bazarlarda mövqeyimizin güclənməsinin təmin edilməsidir.

Sahibkarların xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi məqsədilə AZPROMO da fəaliyyətini artırmaq niyyətindədir. Təşkilat ölkə sahibkarlarının ixrac potensialının artırılmasında, investisiya imkanlarının genişləndirilməsində, potensial tərəfdaşların tapılmasında və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsində sahibkarlara dəstəyi gücləndirəcək. Sahibkarların işgüzar əlaqələrinin inkişafı məqsədilə həm ölkə daxilində, həm də xaricdə müxtəlif biznes forumları, sərgilər, seminar və konfranslar keçiriləcək.

**Elbrus CƏFƏRLİ**

# Yeni sığorta mexanizminin yaradılması üzərində iş aparılır

Avropa İttifaqı qeyri-dövlət pensiya fondlarının yaradılması istiqamətində Azərbaycanla birgə layihə həyata keçirir. Müəyyən edilmiş prosedur qaydalarına uyğun olaraq, layihənin həyata keçirilməsi üçün təsdiq olunan müqavilə ötən ilin aprel ayında qüvvəyə minib, iyun ayında isə təqdimatı keçirilib.

Bu günlərdə ölkəmizin sığorta-pensiya sistemində yığım komponentinin tətbiq edilməsi, qeyri-dövlət pensiya fondlarının formalaşdırılması və fəaliyyətini tənzimləyəcək qanunvericilik bazasının yaradılması sahəsində Dövlət Sosial Müdafiə Fondu (DSMF) ilə Avropa İttifaqının birgə layihəsinin icra vəziyyəti barədə ictimaiyyətin məlumatlandırılması məqsədilə brifinq-təqdimat keçirilib. Tədbirdə layihə rəhbəri, DSMF-nin şöbə müdiri Nigar Pənahova görülmüş işlər barədə məlumat verərək qeyd edib ki, təsdiq olunmuş fəaliyyət planına müvafiq olaraq, Avropa İttifaqının ekspertlər qrupunun ölkəmizə çoxsaylı səfərləri çərçivəsində Azərbaycanda mövcud iqtisadi və demoqrafik vəziyyət, qanunvericilik, maliyyə və sığorta-pensiya sistemi öyrənilib, geniş araşdırma işləri aparılıb. Layihənin fəaliyyət göstərdiyi dövr ərzində ekspertlərin və DSMF-nin nümayəndələrinin iştirakı ilə təşkil olunmuş seminarlarda Azərbaycan və Avropa İttifaqına daxil olan bir sıra ölkələrin sosial sığorta və pensiya təminatı sistemləri ilə bağlı geniş təqdimatlar edilib, bu sistemlərin xüsusiyyətləri barədə ətraflı müzakirələr aparılıb. Ekspertlərin səfəri çərçivəsində həmçinin layihə üzrə nəzərdə tutulan qanunvericiliyin hazırlanması üçün ilkin planın konseptual aspektləri ilə bağlı ətraflı müzakirələr təşkil olunub.

Məlumat verilib ki, hazırda layihənin icrasını həyata keçirən beynəlxalq ekspertlər yığım komponentinin tətbiqi və qeyri-dövlət pensiya fondlarının fəaliyyəti ilə bağlı qanunvericiliyin ilkin planının layihəsi üzərində işləyirlər. Qanunvericilik bazası üzrə ilkin plan ekspertlərin apardığı araşdırma işlərinin nəticələri əsasında beynəlxalq təcrübə nəzərə alınmaqla tərtib ediləcək. İctimaiyyətin daha ətraflı məlumatlandırılması məqsədilə sənəd layihəsinin Avropa İttifaqı tərəfindən aprel ayında geniş təqdimatının keçirilməsi nəzərdə tutulur.

Layihə üzrə qanunvericilik bazasının yaradılması üçün ilkin planda pensiya təminatı sisteminin hər bir səviyyəsinə aid müxtəlif təşkilati, inzibati, maliyyə, nəzarət, hüquqi və s. məsələlər öz əksini tapacaqdır. İlkin plana daxil edilən məsələlər sonradan qanunvericilik bazası layihəsinin işlənməsində əsas götürüləcəkdir. Yığım komponentinin tətbiqi ilə bağlı qanunvericilik bazasının ilkin planında əks etdirilməli olan vacib məsələlər sırasında vəsaitlərin yığım hesablarında toplanması mexanizmləri, idarə olunması, onların yönəldilə biləcəyi investisiya növləri, aktivlərin qiymətləndirilməsi və investisiya gəlirliliyinin hesablanması qaydalarıdır. Qeyri-dövlət pensiya fondları ilə bağlı isə bu institutların ümumi strukturu və iş prinsipləri, qeyri-dövlət pensiya proqramlarının xüsusiyyətləri, bu sahədə inzibatçılıq, dövlət nəzarəti və tənzimləməsi, pensiya vəsaitlərinin idarə olunması və s. məsələlər mühüm əhəmiyyət kəsb edir.

Layihənin reallaşdırılması ilə ölkəmizdə dövlət pensiya təminatı sistemində real yığım komponentinin, eləcə də qeyri-dövlət pensiya institutlarının fəaliyyətini tənzimləyəcək təkmil normativ hüquqi baza hazırlanacaqdır. Layihə üzrə işlərin 2015-ci ilin noyabr ayında başa çatdırılması nəzərdə tutulub.



Onu da əlavə edək ki, qeyri-dövlət pensiya fondlarının yığımları məcburi qaydada deyil, vətəndaşların öz istəklərinə uyğun tənzimlənəcək. Vətəndaşlar Dövlət Sosial Müdafiə Fonduna aylıq icbari sığorta ödəmələrini həyata keçirməklə bərabər, investisiya xarakterli qurum olan özəl pensiya fondlarına hər ay müəyyən məbləğdə pul köçürə biləcəklər. Həmin vəsaitlər bank hesablarına toplanaraq sosial-sığorta haqlarının başqa bir zəmanət funksiyasını ehtiva edir. Bu isə o deməkdir ki, vətəndaş həm dövlətdən, həm də özəl fonddan pensiya almaq imkanı qazanacaq.

**AYTƏN**

# Dünya Bankı Azərbaycanda sənaye layihələrinə dəstək verir

Dünya Bankının (DB) Azərbaycan üzrə meneceri Larisa Leşşenko bildirib ki, yaxın dövr üzrə sənaye layihələrinin həyata keçirilməsinə dəstək artırılacaq. Onun sözlərinə görə, sənaye parkları ölkədə sənayenin rəqabət qabiliyyətinin artırılması baxımından əhəmiyyətlidir. DB təkcə Balaxanı texnoparkına 47 milyon dollar investisiya qoyacaq. Gəncə və Mingəçevirdə sənaye parkları və xüsusi iqtisadi zonaların, sənaye klasterlərinin yaradılmasına da dəstək artırılacaq.

İqtisadiyyat və sənaye nazirinin müavini Niyazi Səfərov bu məsələ ilə bağlı qeyd edib ki, DB ilə əməkdaşlıq çərçivəsində qeyri-neft sektorunun, o cümlədən qeyri-neft sənayesinin modernləşməsi və diversifikasiyası, sənaye məhsullarının ixracının artırılması, sənaye istehsalında regionların payının yüksəlməsi, yeni iş yerlərinin yaradılması, sənaye müəssisələrinin sənaye zonalarında cəmləşdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçiriləcək. Bu istiqamətdə Sinqapur və Malayziyanın təcrübəsi öyrəniləcək.

DB-nin ölkəmizə səfər edən missiyasının Azərbaycan hökuməti ilə apardığı müzakirələrdə iqtisadiyyatın rəqabətliliyinin artırılması barədə də müzakirələr aparılıb. Nümayəndə heyətinin rəhbəri H.Kerali bildirib ki, Azərbaycanda bank və maliyyə bazarının inkişaf etdirilməsi, bank nəzarətinin gücləndirilməsi, kapitallaşdırma və konsolidasiya prosesləri, rayon və kiçik şəhərlərdə, kənd yerlərində əhalinin bank-maliyyə xidmətlərinə sərbəst çıxışının təmin edilməsi, regionlarda bank filial və şəbəkələrinin sayının artırılması yaxın vaxtlarda öz həllini tapmalıdır. Bununla bağlı DB-nin tövsiyələri verilib, Azərbaycanla yeni «Tərəfdaşlıq çərçivəsi»nin hazırlanmasının vacibliyi vurğulanıb.

H.Kerali hesab edir ki, insan kapitalına və özəl sektora sərmayə yatırımı artırılmalı, dövlətin yönəltdiyi sərmayələr neftdən qaz sektorundan daha çox iqtisadiyyatın digər sahələrini əhatə etməlidir. Yaxın perspektiv üçün əsas cəlbedici sahələrdən biri aqrar sahə sayılır və kənd təsərrüfatının inkişaf etdirilməsi neftdən asılılığı azalda bilər. DB rəsmisi kənd təsərrüfatı sahəsində rəqabətliliyin və məhsuldarlığın artırılması məqsədilə Azərbaycana dəstək göstəriləcəyini bəyan edib. Bu günlərdə yaradılmış «Azərtoxum» MMC-yə, eləcə də fermerlərin müxtəlif kənd təsərrüfatı bitkilərinin yüksək məhsuldar sortlar və toxumlar əldə etməsinə yardım ediləcək.

DB azad biznesin inkişaf etdirilməsində sahibkarlığın rolunun artırılmasını və sahibkarlıq fəaliyyəti ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsini və sahibkarlıq sahəsində yoxlamaların sayının azaldılmasını da tövsiyə edir.

İqtisadiyyat və sənaye nazirinin müavini Niyazi Səfərov bildirib ki, ötən ilin sonlarında «Sahibkarlıq fəaliyyəti haqqında» Qanunda edilmiş dəyişikliyə əsasən, sahibkarlıq sahəsində aparılan yoxlamaların sayının azaldılması, yoxlamaların asanlaşdırılması, sahibkarların hüquq və maraqlarının müdafiəsi ilə bağlı yeni qaydalar tətbiq olunacaq. Yeni qaydalar sahibkarlıqla məşğul olan insanların fəaliyyətinə geniş şərait yaradılması, onlara maneçilik törədən bütün məsələlərin həlli ilə bağlı təsirli və operativ tədbirlərin görülməsinə imkan verəcək. Yeni qaydalar yoxlamaları zamanı şəffaflığın artırılmasını, biznes mühitinin yaxşılaşdırılmasını, qeydiyyatın, yoxlamaların və digər əməliyyatların, eləcə də ödənişlərin elektronlaşdırılmasını, yoxlamaların vahid məlumat reyestrinin aparılmasını və elektron uçot sistemini də təmin edir.

DB-nin tövsiyələrindən biri qeyri-neft sahələrində çalışan sahibkarların inamının artırılması üçün sığorta bazarının inkişaf etdirilməsi ilə əlaqədardır. Bank ekspertlərinin fikrincə, sığorta sektorunda istehlakçıların hüquqlarının qorunmasını təmin etmək üçün ilk növbədə şirkətlər üçün ümumi şikayət proseduru və mexanizmi yaradılmalıdır.

**E.CƏFƏRLİ**

# Ünvan Reyestri İnformasiya Sistemi tam fəaliyyətə başlayacaq

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən Ünvan Reyestri İnformasiya Sisteminin tətbiqi kadastr sisteminin inkişafı, daşınmaz əmlakın qeydiyyatı sahəsində tətbiq edilən yeniliklər, onlayn xidmətlər, eləcə də ölkə üzrə mobil ofis xidmətlərinin göstərilməsi və s. sahələrdə şəffaflığın yüksəlməsini, rahatlığı və vaxta qənaət olunmasını təmin edib. Ölkə başçısının fərmanına əsasən, komitə ötən ilin noyabrından «kütləvi çıxarış kampaniyası»na da start verib: vətəndaşların əvvəllər əldə etdiyi mülkiyyət sənədləri dövlət reyestrindən çıxarışlarla əvəz olunur. Kampaniyanın mühüm üstünlüyü çıxarışların vətəndaşlara mobil ofislər vasitəsilə yerlərdə təqdim olunmasıdır. Ötən il kampaniya Saatlı, Şəmkir, Abşeron, Cəlilabad, Qəbələ və Şəkidə keçirilib və ümumilikdə 1600-ə yaxın vətəndaşın mülkiyyət sənədləri dövlət reyestrindən çıxarışlarla əvəz edilib.

Elektron xidmətlərin təşkili sahəsində daşınmaz əmlak idarəçiliyi, əmlakın qeydiyyatı, özəlləşdirmə və hərraclarla bağlı tətbiq edilən elektron xidmətlərin sayı 31-ə çatdırılıb.

Ötən il Dünya Bankının dəstəyi ilə «Daşınmaz əmlakın qeydiyyatı layihəsi»nin icrası uğurla davam etdirilib. İl ərzində 205.200-ə yaxın daşınmaz əmlak obyekti üzərində mülkiyyət hüquqları qeydiyyata alınıb. Hüquqi və fiziki şəxslərə dövlət reyestrindən 157.200-dən çox yüklülük arayışı, əhaliyə xidmətlə bağlı 19.950-dən çox digər müxtəlif məzmunlu arayışlar verilib. 45.600-dən çox ipoteka müqaviləsi qeydə alınıb. 175.000-ə yaxın daşınmaz əmlaka dair texniki inventarlaşdırılma və çöl ölçmə işləri aparılıb və texniki sənədlər tərtib edilib.

ƏMDK daşınmaz əmlakın vahid kadastrı və ünvan reyestri sahəsində işləri davam etdirib. Almaniyanın «KfW» Bankının maliyyə dəstəyi ilə həyata keçirilən «Kadastr və daşınmaz əmlakın qeydiyyatı» layihəsi çərçivəsində mühüm addımlar atılıb. Bakı şəhərinin Səbail, Yasamal, Nəsimi, Nərimanov və Xəzər rayonları üzrə daşınmaz əmlaklar haqqında mükəmməl elektron kadastr məlumat bazasının və rəqəmsal kadastr xəritələrinin yaradılması üzrə işlər yekunlaşıb. Respublikanın 53 şəhər və rayonu üzrə sadə modelli elektron kadastr məlumat bazasının yaradılması işləri bitib. Layihə çərçivəsində hazırlanmış kadastr məlumatlarının vahid informasiya bazasına köçürülməsi istiqamətində tədbirlər görülür. Almaniya hökumətinin maliyyə dəstəyi ilə Şəki və Gəncənin ərazisini tam əhatə edən kadastr işləri davam etdirilir. Bakı şəhərinin Binəqədi, Qaradağ, Pirallahı, Nizami və Xətai rayonları üzrə daşınmaz əmlaklar haqqında elektron kadastr məlumat bazasının yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtibi üzrə işlərin icrası həyata keçirilir.

Ötən il martın 1-dən Ünvan Reyestri İnformasiya Sisteminin (ÜRİS) Bakı şəhərinin Səbail, Yasamal, Binəqədi, Xətai, Nərimanov, Nizami rayonları üzrə 60 küçədə ilkin mərhələdə tətbiqinə başlanılıb. Bu məqsədlə dövlət orqanlarının malik olduqları informasiya sistemləri ÜRİS ilə inteqrasiya edilir. Hazırda mövcud ünvanların yeni qaydalarla verilən ünvanlara dəyişdirilməsi prosesi gedir. Mərhələlərlə yeni ünvan sisteminin tətbiq edilməsi və istifadəçilərə çatdırılması təmin olunacaqdır. İlk olaraq yeni ünvan sistemi Bakı şəhərində işə salınıb. 2015-ci ilin sonunda ÜRİS artıq ölkə üzrə tam fəaliyyətə başlayacaqdır.

Ötən il ölkənin şəhər və rayonları üzrə daşınmaz əmlak obyektlərinə ünvanların yeni qaydalar əsasında verilməsi işləri də davam etdirilib.

**AYTƏN**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Anlaşılmazlıq yarada bilən bəzi xərclərin auditi

Müəssisələrdə baş verən inzibati (idarəetmə) xərclər öz xüsusiyyətinə (xarakterinə) görə digər xərclərdən fərqlənir. Həmçinin inzibati istiqamətdə çəkilən xərclərin həqiqiliyini və tamlığını bəzi hallarda aydınlaşdırmaq çətin olur. Belə xərclərə rabitə, yanacaq, dəftərxana malları, bu istiqamətdə istifadə olunan materialları və başqa bu kimi xərcləri aid etmək olar.

Məsələn, hüquqi şəxsin adına mobil telefon və mobil telefon nömrəsi alına və müəssisənin təsərrüfat fəaliyyətində istifadə oluna bilər. Maraqlısı odur ki, bu telefondan başqa məqsədlər üçün istifadə olunması istisna deyildir. Məsələn, müəssisənin işçisinə verilmiş bu cür mobil telefon vasitəsilə həmin işçi bəzi hallarda işlədiyi müəssisənin bilavasitə fəaliyyətinə aid olmayan istiqamətlərdə (öz ailə üzvləri, dostları, qohumları ilə) də danışa bilər. Lakin bunun aşkara çıxarılmasında müəyyən çətinliklərin olduğunu nəzərə alsaq, deməli, mobil telefon xərclərinin bütövlükdə vergitutma məqsədləri üçün gəlirin alınması ilə bağlı olduğuna şübhə yeri yaranır. Müşahidələr onu göstərir ki, müəssisələrdə istifadə olunan mobil telefon xərclərinin 25-50%-i kənar danışıqlardır. Sadəcə olaraq belə xərclərin digər xərclərə nisbətən daha az və maliyyə təsirinin daha aşağı olduğunu nəzərə alaraq müəssisələrdə, həmçinin yoxlama aparan orqanlar tərəfindən bu xərclərin düzgünlüyünə bir o qədər də əhəmiyyət verilmir. Lakin elə müəssisələr (iri ticarət obyektləri, vasitəçi şirkətlər və s.) vardır ki, işin xüsusiyyətindən asılı olaraq müştərilərlə və işçilərarası daxili əlaqələr yaradılması məqsədilə çoxlu sayda mobil telefonlardan istifadə edilir. Belə olan hallarda mobil telefon danışıqları üzrə xərclərin reallığını yoxlamaq zərurəti yarana bilər. Bunun aşkara çıxarılması üçün isə mobil rabitə şirkətindən telefon zənglərinin çıxarışını əldə etmək prosedurları da asanlaşdırılmalıdır.

Xidməti maşınlarla bağlı xərcləri də bu tip xərclərə aid etmək olar. Müəssisə daxilində vəzifəli şəxslərin, xüsusən də rəhbər işçilərin xidməti maşınlarında istifadə olunan yanacaq, yağ və digər saxlama xərclərinin müəssisənin bilavasitə fəaliyyətinə tam aid olduğunu müəyyən etməkdə də anlaşılmazlıqların olması mümkündür. Mobil telefon xərclərində olduğu kimi, vəzifəli şəxs yanacaq istifadə olunan xidməti avtomobilindən öz şəxsi məqsədləri, öz ailəsi, dostları və şəxsi qonaqları üçün istifadə etməyəcəyinə inanmaq çətindir və bu baxımdan da həmin avtomobil ilə bağlı sadalanan xərcləri tam olaraq gəlirdən çıxılan xərclərə aid edilməsində şübhə yeri yarana bilər. Yanacağın isfifadəsinin düzgünlüyü üçün avtomobilin qət edilən məsafəni göstərən cihazının göstəricisindən istifadə edilməlidir. Audit zamanı müəyyən dövr ərzində qət edilən yola görə nəqliyyat vasitəsinin xüsusi cihazının məsafə göstəricisinin müəssisənin fəaliyyətində baş verən əməliyyatlara uyğunluğuna baxılması vacibdir.

Müəssisə tərəfindən inzibati, kommersiya və digər qeyri-istehsal məqsədləri üçün mal-material şəklində alınan maddi əşyalar, məsələn, dəftərxana ləvazimatı, qısa müddətə istifadəsi mümkün olan digər xırda əşyalar və başqa bu kimi digər maddi əşyalar alındığı anda da həm mühasibat, həm də vergitutma məqsədləri üçün birbaşa xərc kimi tanınır. Lakin bu əşyaların həqiqətən müəssisənin fəaliyyəti üçün istifadəsini təsdiq edən daxili aktlar bir çox hallarda tərtib edilmir. Belə xərclərin silinməsi (istifadə olunması) məqsədilə daxili tərtib olunan aktlar həmin xərclərin həqiqiliyini maksimum təsdiq etmiş olur və bu məsələlərə audit zamanı diqqət yetirilməsi vacibdir.

Ümumiyyətlə, inzibati idarəetmə xərclərində şəxsi (kənar) istiqamətlərdə istifadə olunması böyük ehtimal edilən bir çox xərclər vardır ki, bu xərclər də vergi ödəyicisi tərəfindən vergitutmada gəlirdən çıxılan xərclərə qeyd-şərtsiz tam aid edilməsi hallarına rast gəlmək olur. Lakin praktiki olaraq aparılan audit yoxlamalarında mühasibat uçotu baxımından uçot siyasəti üzrə həmin xərclər tam olaraq uçot məhfəətinin hesablanmasına aid edilməsinə baxmayaraq, vergitutma məqsədləri üçün gəlirdən çıxılan xərclərə aid edilib-edilməməsinə də diqqət yetirilməlidir. Həmçinin belə xərclərin bir hissəsinin şəxsi məqsədlər üçün istifadə olunması təsdiqləndiyi halda ödəmə mənbəyində tutulan vergi öhdəliyinin yaranması da mümkün olur. Sadalanan xərclərin şəxsi (kənar) məqsədlərə istifadə olunan hissəsinin (əgər vardırsa) aşkar edilməsində dolayısı ilə müəssisənin istehsal (iş, xidmət) fəaliyyəti və bilavasitə həmin xərclərin bu fəaliyyət üçün zəruriliyi dərəcəsindən asılı olaraq yanaşıla bilər.

## vergi təqvimi

| MART | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 17 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23 | 24 | 25 | 26 | 27 | 28 | 29 |
| 30 | 31 | | | | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

27 mart – «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».

31 mart – «1», «2», «5» və «7».

**«1» - Gəlir vergisi:** Gəlir vergisi üzrə hesabat dövrü təqvim ilidir. Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər, ödəmə mənbəyində vergiyə cəlb olunması nəzərdə tutulmayan (tutulması mümkün olmayan) gəlirləri olan fiziki şəxslər, yaxud Azərbaycan Respublikasının hüdudlarından kənarda gəlir, o cümlədən royaltidən gəlir əldə edən rezident fiziki şəxslər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanlarına bəyannamə verir və həmin vaxtadək illik gəlir üzrə son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) gəlir vergisini dövlət büdcəsinə ödəyirlər.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«2» - Mənfəət vergisi:** Mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Mənfəət vergisinin ödəyicisi hesab edilən rezident müəssisələr, habelə Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) vergini ödəyir və qeydiyyatda olduğu vergi orqanına bəyannamə təqdim edir.

Bələdiyyə mülkiyyətində olan müəssisələr mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə), digər müəssisələr isə dövlət büdcəsinə ödəyirlər.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«5» - Əmlak vergisi:** Müəssisənin əmlak vergisi üçün hesabat dövrü təqvim ili sayılır. Əmlak vergisinin ödəyicisi olan müəssisə əmlak vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına verir və vergini həmin müddətədək son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) dövlət büdcəsinə ödəyir.

**«7» - Yol vergisi:** Müəssisənin yol vergisi üçün hesabat dövrü təqvim ili sayılır. Azərbaycan Respublikasının ərazisində təqvim ilinin sonu vəziyyətinə mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan hüquqi şəxslər yol vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim edir və həmin müddətədək hesablanmış vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

# Məcburi dövlət sosial ödənişinin strukturu dəyişdiriləcək

*Dövlət Sosial Müdafiə Fondu (DSMF) yaxın illərdə məcburi dövlət sosial ödənişinin balansının dəyişdirilməsini tətbiq etməyi planlaşdırır. Strateji plana əsasən, sosial ödənişin strukturunda işəgötürənin ödəniş əmsalının sabit qalması və yaxud cüzi azaldılması, işçinin əmsalının isə artırılması nəzərdə tutulur.*

DSMF sədri Elman Mehdiyevin sözlərinə görə, yeni layihə ilə bağlı MDB və Avropa ölkələrinin mütərəqqi modelləri nəzərdən keçirilir. ABŞ və Qərbi Avropa ölkələrində sosial ödəniş əmsalı təxminən yarı-yarıyadır. Yəni işəgötürən və işçi eyni səviyyədə məcburi sosial ödəniş haqqı ödəyir. MDB-nin əksər ölkələrində və Azərbaycanda isə bu ödəmə əmsalı əməkhaqqının işəgötürən tərəfindən 22%-i, işləyənlər tərəfindən isə 3%-i miqdarındadır.

Elman Mehdiyev qeyd edib ki, ölkəmizdə orta aylıq əməkhaqqının artması və Avropa meyarlarına çatmasından sonra bu prosesə keçid təmin oluna bilər. Azərbaycanda üç variant nəzərdən keçirilir: işəgötürən üçün 20%, işçi üçün 5% nisbəti; 18% və 7% nisbəti; işçinin maaşından asılı olaraq, onun sosial yükünün artırılması.

Məcburi dövlət sosial sığorta yığımı əmsalında faiz nisbətlərinin dəyişməsini yerli sahibkarlıq subyektləri də dəstəkləyir. Özəl şirkətlər tərəfindən Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasına təqdim olunan təkliflərdə bu məsələ xüsusi yer alıb. Konfederasiyadan bildirildiyinə görə, sahibkarlıq subyektlərinin əksəriyyəti hazırda tətbiq olunan 22%-lik məcburi sosial ödəniş əmsalını yüksək hesab edir, bunun müəssisənin gəlirlə işləməsinə mane olduğunu bildirirlər. Bir sıra özəl şirkətlərin öz işçiləri ilə əmək müqaviləsi bağlamaqdan yayınmasının səbəblərindən biri də budur. Konfederasiya bu məqsədlə əmək bazarının genişləndirilməsi və əmək müqaviləsinin bağlanmasının sayının artırılması üçün radikal tədbirlərin tətbiq olunmasını məqsədəuyğun sayır. MDB ölkələrindən Rusiya və Qazaxıstanda bu addım atılıb, qonşu Gürcüstanda isə gündəlikdədir.

Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının rəhbəri Sahib Məmmədovun sözlərinə görə, Azərbaycan hökuməti Beynəlxalq Əmək Təşkilatı və Avropanın müvafiq qurumları qarşısında əmək bazarının canlandırılması, sosial qanunvericiliyin təkmilləşdirilməsi və bu sahədə qabaqcıl ölkələrin səmərəli təcrübəsinin tətbiq edilməsi ilə əlaqədar öhdəliklər götürüb. Bu sırada sosial ödənişlərin strukturunda dəyişikliklərin olunması da əsas yer tutur. Ümumilikdə bu prinsiplərin əsas məqsədi özəl şirkətlərin sosial ödənişlər üzrə yükünü azaltmaq, onların fəaliyyətini daha da stimullaşdırmaq, yeni yaradılan müəssisələrə əlavə imkanlar yaratmaq, işəgötürənin işçi ilə əmək münasibətlərinin sivil formada nizamlanmasını təmin etməkdir.

Ekspert hesab edir ki, bu modelin ən yaxşı forması 18 - 7%-lik əmsalın tətbiqidir. Həmin modeli ölkəmizdə müxtəlif mərhələlər üzrə reallaşdırmaq mümkündür.

*Son illər məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların strukturunda da özəl sektorun payı əhəmiyyətli dərəcədə yüksəlməyə başlayıb*

Mövcud tendensiya göstərir ki, son illər məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların strukturunda da özəl sektorun payı əhəmiyyətli dərəcədə yüksəlməyə başlayıb. Hazırda məcburi dövlət sosial sığorta haqlarının 60%-dən çoxu qeyri-büdcə sektorunun payına düşür və həmin sektor üzrə toplanan sığorta haqlarının məbləği təkcə cari ilin 2 ayı üzrə 15% artıb. Bu faktor özəl sektorun iqtisadiyyatda çəkisinin artmasının göstəricisi kimi səciyyələndirilə bilər.

**ELBRUS**

# Yeni hesablar planı üzrə ikili yazılışların verilməsi

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**Əvvəli ötən sayımızda**

Hörmətli oxucular, yeni hesablar planında əks etdirilən bütün mühasibat hesablarında (hazırda 111№-li və 112№-li hesablarda) aparılacaq əməliyyatlara dair ikili yazılışların verilməsi ilə bağlı tövsiyələrimizi davam etdiririk. Göstərilən nümunələr şərti və öyrətmə xarakteri daşıyır.

***Misal.*** Müəssisə 2012-ci ilin yanvar ayında faydalı istismar müddəti 5 il və son qalıq dəyəri 800 manat müəyyənləşdirilməklə 5000 manat dəyərində generator avadanlığı almışdır. Sahibkar tərəfindən avadanlığa azalan qalıq metodu ilə illik 20% amortizasiya dərəcəsi tətbiq olunması qərarı verilmişdir. Lakin 03.10.2014-cü il tarixdə həmin avadanlıq müəyyən texniki səbəblərdən (təqsirkar tərəf yoxdur) xarab olmuş və rəhbərlik tərəfindən avadanlığın istismara yararsız olması tam təsdiqlənmişdir. Həmin tarixdə avadanlığın ləğv edilməsi qərarı verilmiş və avadanlığın sökülməsindən dəyəri 300 manat qiymətləndirilən metallom anbara qəbul edilmişdir. Bu əməliyyatlarla bağlı veriləcək ikili yazılışları təyin etmək tələb olunur.

Əvvəlcə 2012-ci ilin yanvar ayından 03.10.2014-cü il tarixədək olan dövr üzrə hesablanmalı olan (mühasibat uçotu məqsədləri üçün) amortizasiya dəyərini müəyyənləşdirək. Bunun üçün aşağıdakı formada hesablama cədvəli tərtib edək:

| Dövr | İllik % dərəcəsi | İlkin dəyər | Amortizasiya tətbiq olunan dəyər | İllik amortizasiya dəyəri | Yığılmış amortizasiya dəyəri | Balans (qalıq) dəyəri |
|---|---|---|---|---|---|---|
| 2012-ci il | 20% | 5000 | 4200 | 840 | 840 | 4160 |
| 2013-cü il | 20% | 5000 | 3360 | 672 | 1512 | 3480 |
| 03.10.2014-dək | 20% | 5000 | 2688 | 403 | 1915 | 3085 |

Deməli, ləğv olunan tarixə avadanlıq üzrə yığılmış amortizasiya dəyəri 1915 (840 + 672 + 403) manat, balans (qalıq) dəyəri isə 3085 (5000 - 1915) manat təşkil edəcəkdir. Avadanlığın sökülməsindən mədaxil olan metallomun 300 manat dəyərində qiymətləndirildiyini nəzərə alsaq, müəssisənin bu avadanlıq üzrə 2785 (3085 - 300) manat xərci yaranır. İkili yazılışlar isə aşağıdakı kimi olacaqdır:

| Tarix | Hesabın №-si və adı | Əməliyyatın məzmunu | Debet (məbləğ) | Kredit (məbləğ) |
|---|---|---|---|---|
| 31.12.2012 | 202, İstehsal məsrəfləri | 2012-ci il ərzində hesablanmış amortizasiya dəyəri uçota alınır (əgər avadanlıq istehsal məqsədlidirsə). | 840 | |
| 31.12.2012 | 112, Torpaq, tikili və avadanlıqıar – amortizasiya dəyəri | 2012-ci il ərzində hesablanmış amortizasiya dəyəri uçota alınır (əgər avadanlıq istehsal məqsədlidirsə). | | 840 |
| 31.12.2013 | 202, İstehsal məsrəfləri | 2013-cü il ərzində hesablanmış amortizasiya dəyəri uçota alınır (əgər avadanlıq istehsal məqsədlidirsə). | 672 | |
| 31.12.2013 | 112, Torpaq, tikili və avadanlıqıar – amortizasiya dəyəri | 2013-cü il ərzində hesablanmış amortizasiya dəyəri uçota alınır (əgər avadanlıq istehsal məqsədlidirsə). | | 672 |
| 03.10.2014 | 202, İstehsal məsrəfləri | 01.01.2014 - 03.10.2014 dövr (9 ay) ərzində hesablanmış amortizasiya dəyəri uçota alınır (əgər avadanlıq istehsal məqsədlidirsə). | 403 | |
| 03.10.2014 | 112, Torpaq, tikili və avadanlıqıar – amortizasiya dəyəri | 01.01.2014 - 03.10.2014 dövr (9 ay) ərzində hesablanmış amortizasiya dəyəri uçota alınır (əgər avadanlıq istehsal məqsədlidirsə). | | 403 |
| 03.10.2014 | 112, Torpaq, tikili və avadanlıqıar – amortizasiya dəyəri | Ləğv edilmiş avadanlığın ləğv tarixinə yığılmış amortizasiya dəyəri uçotdan silinir | 1915 | |
| 03.10.2014 | 111, Torpaq, tikili və avadanlıqıar – ilkin dəyər | Ləğv edilmiş avadanlığın ləğv tarixinə yığılmış amortizasiya dəyəri uçotdan silinir | | 1915 |
| 03.10.2014 | 207, Digər aktivlər | Ləğv olunmuş avadanlığın sökülməsindən daxil olan metallom | 300 | |
| 03.10.2014 | 111, Torpaq, tikili və avadanlıqıar – ilkin dəyər | Ləğv olunmuş avadanlığın sökülməsindən daxil olan metallom | | 300 |
| 03.10.2014 | 731, Sair əməliyyat xərcləri | Ləğv olunmuş avadanlığın qalıq (ləğv tarixinə balans (qalıq) dəyərinin metallomun dəyəri qədər azaldılan hissəsi) uçotdan silinir | 2785 | |
| 03.10.2014 | 111, Torpaq, tikili və avadanlıqıar – ilkin dəyər | Ləğv olunmuş avadanlığın qalıq (ləğv tarixinə balans (qalıq) dəyərinin metallomun dəyəri qədər azaldılan hissəsi) uçotdan silinir | | 2785 |

beynəlxalq panoram

# Yaponiyada istehlak vergisi artırılacaq



Maliyyə naziri 2017-ci ilin aprelində istehlak vergisinin 10%-dək artırılması haqda ölkə hökumətinin qətiyyətli olduğunu bildirib. O qeyd edib ki, Yaponiyanın büdcəsi «olduqca çətin» vəziyyətdədir və dövlət borcu ÜDM-in həcmindən iki dəfədən də çoxdur. Nazirin sözlərinə əsasən, Yaponiya hökuməti bundan sonra da büdcənin profisitnin 2020-ci ilədək bərpa olunması planını yerinə yetirmək niyyətindədir.

Beynəlxalq Valyuta Fondunun (BVF) məlumatına görə, 2014-cü ildə Yaponiyanın büdcə kəsiri 7,1% ÜDM təşkil edib. BVF güman edir ki, 2019-ci ildə mənfi saldo ÜDM-in yalnız 4,7%-dək azalacaq və bu, dünyanın inkişaf etmiş ölkələri arasında ən zəif göstərici olacaq.

Yaponiya dövlət borcuna xidmət göstərilməsinə büdcənin təqribən dörddə birini (2015-ci maliyyə ilində 24,3%) sərf edir.

# Rusiyada zənginlik üçün vergi artırıla bilər

Dövlət Duması varlılar üçün vergilərin 28%-dək artırılması haqqında qanun layihəsinə baxacaq. Gəliri ildə ən azı beş milyon rubl olan vətəndaşlar üçün vergi dəyişməz olaraq qalacaq.

Rusiya vətəndaşlardan tutulan vergilərin gəlirlərdən asılı olan sistemini tətbiq edə bilər: gəlir yüksəldikcə vergilər də yüksələcək.

İldə 5 milyondan 50 milyonadək gəlir əldə edənlər üçün gəlir vergisinin dərəcəsi 18% təşkil edə bilər. Qazancı 50 milyondan yarım milyardadək olanlar xəzinəyə 23%, illik gəliri 500 milyon rubldan çox olanlar isə 28% vergi ödəyəcəklər.

# Latviya hökuməti mikromüəssisələrdən vergi tutmağı tövsiyə edir

Hökumət bu ildən başlayaraq dövriyyəsi 100 min avroyadək olan bütün mikromüəssisələrə 9% vergi tətbiq edilməsi haqda Maliyyə Nazirliyinin təklifini dəstəkləyib.

Latviya Maliyyə Nazirliyi mikromüəssisələrin işində, o cümlədən sosial təminat sahəsində bəzi problemlərin olduğunu göstərib. Nazirlik hesab edir ki, mikromüəssisələr üçün tədricən minimum əməkhaqqından 122 avro məbləğində məcburi sosial sığorta haqları ayrılmalıdır.

2016-cı ilin büdcəsi təqdim olunanadək məsələnin həlli yolu tapılmazsa, Maliyyə Nazirliyi həmin ildən etibarən vergini illik dövriyyəsi 7000 avroyadək olan mikromüəssisələrdən 9%, 7000 avrodan 100 min avroyadək olduqda 13%, 2017-ci ildən isə 15% dərəcəsi ilə tutulmasını nəzərdə tutan dəyişikliyi tövsiyə edir.



# Borclara gəlir vergisi tətbiq edilib

*Yanvarın 1-dən Belarusda gəlir vergisi təkcə əməkhaqqından deyil, həm də borc götürülən puldan ödənilir. Yenilik ilk növbədə əmlak və gəlir vergisi bəyannamələrini doldurarkən maşın və mənzili borca götürülmüş pulla aldıqlarını izah edənlərə aid olacaq.*

Xarici təşkilatlardan və sahibkarlardan gəlirlər də bu cür kreditlərə və borclara aid edilir. Yaxın qohumdan, həyat yoladaşından, valideyndən, övladdan, bacıdan, qardaşdan, nənədən, babadan, nəvədən, bacanaqdan, qəyyumdan və himayəçidən alınan borc istisna hal ola bilər. Borcu ödədikdən sonra isə vergini geri qaytarmaq olar. Bunun üçün ərizə yazılmalı və vergi orqanına borcun qaytarılmasını təsdiq edən sənəd təqdim edilməlidir. Cari borcun qaytarılması üçün yeni borc alınması haqqında müqavilə bu sənədlərə aid edilmir.

Xarici ölkələrin təcrübəsi

# Slovakiya Respublikası: *əlavə dəyər vergisi*

Əlavə dəyər vergisi (ƏDV) sistemi «Ümumi ƏDV sistemi» adlı 28 noyabr 2006-cı il tarixli Şura Direktivinə əsaslanır. 1 yanvar 2014-cü il tarixdən ƏDV məqsədləri üçün qeydiyyatdan keçmiş şəxslər bütün vergi məsələləri ilə bağlı Slovakiya vergi administrasiyası ilə yalnız elektron formada əlaqə saxlamağa məcburdurlar.

Slovakiyada ƏDV ödəyiciləri iqtisadi fəaliyyətlə məşğul olan hüquqi şəxslər və fərdi şəxslərdir. Ardıcıl 12 ay müddətində dövriyyəsi 49.790 avrodan çox olan müəssisələr ƏDV məqsədləri üçün qeydiyyatdan keçməlidirlər. 1 oktyabr 2012-ci ildən daşınmaz əmlak (bina) təqdim edən şəxslər də müəyyən şərtlər daxilində ƏDV məqsədləri üçün qeydiyyatdan keçməlidirlər. Dövriyyəsi daha az olan müəssisələr könüllü olaraq qeydiyyatdan keçmək üçün ərizə verə bilərlər. Qeydiyyat zamanı vergi administrasiyasının tələbi ilə ƏDV qeydiyyatı üzrə minimum dövriyyə xüsusi hallarda 1.000 avrodan 500.000 avroya qaldırıla bilər.

2009-cu ildən ƏDV məqsədləri üçün qrup şəklində qeydiyyatdan keçmək hüququ təqdim olunmuşdur. Qaydalara əsasən, Slovakiya Respublikası ərazisində hüquqi ünvanı, fəaliyyət göstərdiyi yer və ya daimi yeri olan, bir-biri ilə iqtisadi, maliyyə və təşkilati cəhətdən əlaqələri olan bir qrup vergi ödəyicisi vahid vergi ödəyicisi hesab olunur.

Ölkədə ƏDV-yə cəlb olunan əməliyyatlara başlayan xarici hüquqi şəxslər (və fiziki şəxslər) ƏDV məqsədləri üçün qabaqcadan qeydiyyatdan keçməlidirlər (həmin öhdəlikdən azad olmaq üçün xüsusi şərtlərin yerinə yetirildiyi hallar istisnadır). Xarici müəssisə (və ya fiziki şəxs) Slovakiya Respublikasına konsiqnasiya vasitəsilə mal göndərirsə, təqvim ili ərzində malların satış qiyməti 35.000 avroya çatdıqda qeydiyyat öhdəliyi yaranır.

***Vergiyə cəlb olunan əməliyyatlar***

ƏDV aşağıdakı vergiyə cəlb olunan təqdimetmələrdən tutulur:

- mallar və xidmətlərin vergi ödəyiciləri tərəfindən Slovakiya Respublikasında istifadə üçün təqdim olunması;
- malların Avropa İttifaqına üzv olan digər dövlətdən Slovakiya Respublikasının ərazisində istifadə üçün əldə edilməsi;
- malların Slovakiya Respublikasına idxalı.

***Vergiyə cəlb olunan məbləğlər***

Vergiyə cəlb olunan məbləğ, ƏDV istisna olmaqla, lakin hər hansı aksiz və ya digər vergi və rüsumlar daxil olmaqla, malların təqdim edilməsinə sərf olunmuş məbləğdir.

Mallar və ya xidmətlər qarşılıqlı asılı şəxsə təqdim edilərsə (misal üçün, işçi, idarəetmə heyətinin üzvləri və ya ailə, idarəçilik və ya digər maliyyə bağları ilə aralarında əlaqə yaranmış şəxslər) vergiyə cəlb olunan məbləğ xidmətlərin və ya malların təqdim edilməsinə ödənilən məbləğdən asılı olmayaraq, bazar qiyməti hesab olunur.

***Azadolmalar***

Qabaqcadan ödənilmiş vergi nəzərə alınmadan vergidən azad olan xidmətlərə aşağıdakılar daxildir: poçt, səhiyyə xidmətləri, sosial xidmətlər, təhsil, assosiasiyalar tərəfindən üzvlərinə göstərilən xidmətlər, idman və fiziki təhsillə bağlı xidmətlər, mədəniyyət xidmətləri, maliyyə vasitələrinin yığılması, televiziya və radio yayımları, sığorta, maliyyə xidmətləri, torpaq, bina və mənzillərin təqdim olunması (tikildikdən 5 il sonra), dəftərxana ləvazimatlarının poçt vasitəsilə satışı, lotereya və oxşar oyunların idarə olunması.



***Dərəcələr***

1 yanvar 2011-ci il tarixdən ölkədə ƏDV-nin standart dərəcəsi 20%-dir. Bəzi əczaçılıq məhsulları və əlil şəxslər üçün olan avadanlıqlara 10% dərəcə tətbiq edilir. Mal və xidmətlərin ixracı 0 (sıfır) dərəcə ilə cəlb olunur. Malların Avropa İttifaqı daxilində təqdim olunması da müəyyən şərtlərlə 0 (sıfır) dərəcə ilə cəlb olunur.

***Qeyri-rezidentlər***

Xaricdə ƏDV məqsədləri üçün qeydiyyatdan keçmiş qeyri-rezident hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən təqvim ili ərzində ödənilmiş ƏDV 50 avrodan çox olarsa, Slovakiyada ƏDV əvəzləşdirilə bilər. Bundan əlavə, malların (yanacaq istisna olmaqla) ixracı ilə məşğul olan xarici fərdi şəxslər ƏDV-nin məbləği 175 avrodan çox olduqda Slovakiyada ödənilmiş ƏDV-ni əvəzləşdirə bilərlər.

*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



**Yuxarıdan aşağı:** 1.Şamaxı rayonunda kənd; 2.Azərbaycan Respublikasının Laçın rayonu ilə Ermənistan sərhədində yerləşir; sərhəd gölü hesab edilir. Xüsusi maraq doğuran yüksək dağ göllərindən biridir. Alp landşaft kompleksinə malikdir; 3.Azərbaycan cüdoçusunun adı; 4.Say sistemində ədədlərdən biri; 5.Cənubi Amerikada ot örtüyü ilə zəngin olan bəzi ərazilərə verilən ad; 6.Monqol dillərindən biri; 9.Lerik rayonunda kənd; 13.Azərbaycan Dövlət Opera və Balet Teatrında aparıcı partiyalarda çıxış edən, yaratdığı Leyli və Əsli obrazları ilə yadda qalan Azərbaycanın xalq artistinin adı; 15.Bir yem növü ilə qidalanan parazit; 16.Qoyun, mal və s. kəsimi ilə məşğul olan adam; 17.ABŞ-ın Texas ştatında inzibati dairə; 18.Qədim Misir mifologiyasına görə axirət dünyasının hökmdarı, dirçəlmə və münbitlik tanrısı; 20.Elektrik dövrəsində cərəyan şiddəti, gərginlik və müqavimət arasındakı qanunauyğunluğu müəyyənləşdirən qanununu kəşf etmiş alman fizikinin adı; 21.Rusiya Federasiyasının Tula vilayətində şəhər. **Soldan sağa:** 1.Maqniti, habelə bəzi cisimləri özünə çəkən, yaxud itələyən elektrik gərginliyi və ya elektrik yükü olan naqilin xassəsi; 5.Formasından asılı olmayaraq dağ zirvəsinin ən yüksək nöqtəsi; 7.Qırtlağın selikli qişasının iltihabı; 8.Qayə, məqsəd, arzu, ümid, dilək; 10.Ən kiçik hərbi rütbə; 11.Erikakimilər fəsiləsinə aid bitki cinsi; 12.Qax rayonu ərazisində kənd. Çoxlu sayda alimlər yetişdirməsi ilə məşhurdur; 14.Şimali Afrika, Ərəbistan yarımadası, Hindistan və Asiyanın bəzi bölgələrində geniş yayılmış kişi baş örtüyü; 19.XVIII əsrdə Pənahəli xan tərəfindən Qarabağ xanlığının şərq sərhədində inşa etdirilmiş qala. Xocalı rayonunun inzibati ərazi vahidində şəhər; 21.Avstriyada kommuna; 22.Faiz dərəcəsi və ya valyuta riskini aradan qaldırmaq üçün iki tərəf-müqabil arasında pul axını mübadiləsi; 23.Yer, iş dəyişmək, idmanda bir komandadan başqasına keçmək mənasını verir; 24.Şərqi Avropada çay; 25.ABŞ-ın Nevada ştatında şəhər. Qumarxana və əyləncə dünyasının mərkəzi hesab olunur.



*Cənubi Amerikada ot örtüyü ilə zəngin olan bəzi ərazilərə verilən ad*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Prizma; 2.Enterit; 3.Maqma; 4.Uqanda; 5.Berli; 6.«Raduqa»; 9.İmla; 13.Alça; 15.Polesye; 16.Nəcibə *(Məlikova)*; 17.Eyntri; 18.Layner; 20.Rikşa; 21.Triko. **Soldan sağa:** 1.Preambula; 5.Bar; 7.«İstiqlal»; 8.«Qrad»; 10.Marka; 11.Dempinq; 12.Atlas; 14.Lampa; 19.Əyriçay; 21.Tilda; 22.İrka; 23.Atkinson *(Rouen)*; 24.Əla; 25.Klinometr.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi:
Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor:
Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini:
Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22
Ünvan:
AZ 1141, Bakı ş.,
Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon:
012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 14000

## idman

# Azərbaycan velosipedçiləri ölkəmizi layiqincə təmsil edirlər

Azərbaycanın kontinental velosiped komandası «Synergy Baku» 2015-ci ildə ilk qalibiyyətini əldə edib. Xorvatiyada 30 komandanın iştirakı ilə təşkil edilən Beynəlxalq Velosipedçilər İttifaqının 2.2 kateqoriyalı «Istrian Spring Trophy» yürüşündə komandamızın üzvü Markus Eybeger çempion olub.




Maksim Averin, İsmayıl İlyasov, Markus Eybeger, Dennis van Vinden və Yannis Tamuridisdən ibarət heyətlə yarışan «Synergy Baku» əla komanda yürüşü sərgiləyib. Velosipedçilərimiz 1-ci mərhələdə 2-ci, 2-ci mərhələdə isə 1-ci olmaqla ümumi liderliyi ələ keçirən Eybegerin sonuncu yarış günündə də lazımi nəticəni əldə etməsinə şərait yaradıb.

156 km-dən ibarət sonuncu mərhələdə Markus Eybeger yalnız 49-cu yeri tutsa da, ən yaxın izləyicisi, Rusiyanın «İtera-Katyuşa» komandasının üzvü Sergey Nikolayevlə 8 saniyəlik fərqi qoruyub və bununla da yarışın qalibinə verilən «sarı köynəyi» qazanmaqla «Synergy Baku»ya 2015-ci ildə ilk çempionluq sevinci yaşadıb.

Xatırlatmaq yerinə düşər ki, Azərbaycan velosipedçiləri Xorvatiyada keçirilən bu yarışla paralel olaraq Asiya qitəsində təşkil edilmiş daha bir nüfuzlu idman tədbirində də iştirak ediblər. Azərbaycanın kontinental velosiped komandası «Synergy Baku» Malayziyada keçirilən Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) 2-ci kateqoriyalı çoxgünlük «Le Tour de Langkawi» yürüşündə iştirak edib. 22 komandanın qatıldığı yürüş 8 gün davam edib.

Azərbaycanın şərəfini qoruyan velosipedçilərimizin həm Avropa, həm də Asiya qitəsində təşkil edilmiş yarışlarda mütəmadi iştirakı ölkəmizin təbliğində müstəsna rol oynayır, idmanımızın beynəlxalq səviyyədə tanınmasına və nüfuz qazanmasına layiqli töhfələr verir.

# Federasiya kubokunun qalibləri müəyyənləşdi

*Dağ Velosipedi Parkında idmanın bu növü üzrə açıq federasiya kuboku yarışı keçirilib. İlk Avropa Oyunlarının dağ velosipedi idmanı (MTB) üzrə yarışlarını qəbul edəcək məkanda təşkil olunan mövsümün açılış turnirində peşəkar idmançılarla yanaşı, həvəskarlar da mübarizə aparıblar.*

Müxtəlif yaş qrupuna aid 30-dan artıq velosipedçinin mübarizə apardığı yarışda iştirakçılar uzunluğu 4,5 kilometr olan marşrut boyunca 3 dövrə vurublar. Kifayət qədər mürəkkəb, enişli-yoxuşlu və sərt döngələri ilə yadda qalan mübarizənin yekununda yeniyetmə və gənclər arasında «Neftçi İdman Klubu» İctimai Birliyinin təmsilçiləri Musa Mikayılzadə və Vüqar Nəsibov müvafiq olaraq 1-2-ci yerləri tutublar. İlk üçlüyü Respublika Olimpiya Ehtiyatları İxtisaslaşdırılmış Uşaq-Gənclər Velosiped İdmanı Məktəbinin nümayəndəsi Samir Şıxəlizadə tamamlayıb.

Elit və U-23 yaş kateqoriyasında isə gözlənildiyi kimi, Avropa Oyunlarında iştirak etməyə namizədlər, dağ velosipedi üzrə yığma komandamızın üzvləri, Respublika Olimpiya Ehtiyatları İxtisaslaşdırılmış Uşaq-Gənclər Velosiped İdmanı Məktəbinin təmsilçiləri fəxri kürsüyə qalxıblar. Zədəli Aqşin İsmayılovun yoxluğunda əsas mübarizə Orxan Məmmədov, Aqşin Bağırlı və Murad Sultanov arasında gedib. Əsas rəqiblərindən bir qədər önə keçməyi bacaran O.Məmmədov yekunda federasiya kubokunu başı üzərinə qaldırıb. A.Bağırlı və M.Sultanov isə sonrakı iki yeri tutublar.




# Daha bir «Məktəbli kuboku» yarışı



Azərbaycan Velosiped İdmanı Federasiyası (AVİF) və Xəzər Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə martın 12-də «Bakı-2015» Avropa Oyunları bizim tarixi nailiyyətimizdir» devizi altında «Məktəbli kuboku» yarışı keçirilib. Mərdəkanda təşkil olunan turnirdə rayonun 16 məktəbinin komandası mübarizə aparıb.

Reqlamentə görə, kollektivlər hər birinin tərkibində 3 oğlan və 1 qız iştirakçı olmaqla estafet sistemi üzrə yarışıblar. Həlledici yürüşdə hər məktəbdən 1 iştirakçı qalib adı uğrunda mübarizə aparıb. Yekunda 7 nömrəli məktəbin velosipedçiləri ən yaxşı nəticə göstərməklə «Məktəbli kuboku»nun qalibi olublar. 11 nömrəli məktəbin komandası ikinci, 1 nömrəli məktəbin təmsilçiləri isə üçüncü yeri tutublar. İlk üç yeri tutan komandalar AVİF tərəfindən pul mükafatı, həmçinin kubok, medal və diplomla təltif ediliblər.

Xatırladaq ki, federasiya tərəfindən ötən ilin dekabrında Nərimanov, bir neçə gün əvvəl isə Səbail rayonlarının məktəbləri arasında da pilot layihəli turnir təşkil edilmişdi. Bu yarışlar ümumrespublika «Məktəbli kuboku» turnirinə hazırlıq xarakteri daşıyır.

## mozaika

cəmiyyət

# «Bir qadın, bir uşaq» təşəbbüsü



BMT-nin Nyu-Yorkdakı qərargahında «Bir qadın, bir uşaq» təşəbbüsünün həyata keçirilməsi ilə bağlı toplantı keçirilib. Bu təşəbbüs uşaq və qadın sağlamlığının qlobal mühafizəsi strategiyası çərçivəsində BMT-nin Baş katibi Pan Gi Mun tərəfindən elan olunub və 2010-cu ildə BMT Baş Məclisinin sessiyasında təsdiq edilib. Onun məqsədi tibbi xidmətlərin göstərilməsi sisteminin yaxşılaşdırılması, bu sahəyə ayrılan maliyyənin artırılması və siyasi iradənin gücləndirilməsi yolu ilə beş yaşına qədər daha 15 milyon uşağın, 570 min qadının hamiləlik və doğuş zamanı ölümünün qarşısını almaqdır.

«Beş ildən sonra da bu tərəfdaşlıq davam edir və böyüyür», - Pan Gi Mun deyib. O vurğulayıb ki, 2010-cu ildən başlanan bu təşəbbüsə dünyanın bir çox ölkələrindən 300 tərəfdaş qoşulub. Onlar qadınların və uşaqların sağlamlığının yaxşılaşdırılmasına yönəldilmiş 400 konkret öhdəlik götürüblər.

Bu təşəbbüs sayəsində beş il ərzində 2,4 milyon qadın və uşağın həyatını xilas etmək mümkün olub. Uşaqlar ishal əleyhinə dərmanlarla təmin olunub, onların çoxu düzgün qida almağa başlayıblar. Kampaniya əsasən ana südünün faydası haqqında əhalinin məlumatlandırılması üzrə aparılıb.

# Gürcüstanda Azərbaycan dilində radio

Qonşu respublikada ilk dəfə Azərbaycan dilində Azərbaycan-Gürcüstan FM (AGFM) radiosu yayıma başlayıb.

Soydaşlarımızın yığcam yaşadıqları Marneuli, Bolnisi, Dmanisi, Tetrisgaro (FM 101.5), Rustavi, Qardabani və Tbilisi (FM 100.6) şəhərlərində hər gün 24 saat yayımlanan radionun əsas məqsədi Gürcüstan vətəndaşı olan etnik azərbaycanlıların gürcü cəmiyyətinə inteqrasiyasına kömək göstərmək, onları ölkədə və Azərbaycanda, eləcə də dünyada baş verən hadisələrlə bağlı xəbərlərlə təmin etmək, onların tarixini, mədəniyyətini, incəsənətini, xalq yaradıcılığı nümunələrini təbliğ etmək, yaşatmaq və radio vasitəsilə gənc nəslə çatdırmaqdır.

Səhər saat 9-dan başlayaraq üç saatdanbir 6 dəfə xəbərlər proqramı yayımlanır. Qalan vaxtlarda isə «Sənət arenası», «Dialoq zamanı», «Mən vətəndaşam», «Kənd təsərrüfatı», «Sağlamlıq», «Zəng vurun, sizi dinləyirik», «Biznes bu gün» adlı maarifləndirici, musiqili, əyləncəli verilişlər səsləndirilir.

tam ciddi

# «Made in Azerbaijan»

*İsmayıllı rayonunda Bolqarıstanla birgə tikilməkdə olan velosiped zavodu bu ilin avqustunda istifadəyə veriləcək. İsmayıllı rayonunun icra başçısı Mirdaməd Sadıqovun sözlərinə görə, zavodun səhmlərinin 51%-i Azərbaycanın, 49%-i isə Bolqarıstanın payına düşəcək.*

Qeyd edək ki, Azərbaycanda ilk velosiped zavodu İsmayıllı rayonunun Diyallı bələdiyyəsinin ərazisində ayrılmış 8 hektar sahədə tikilir. Müəssisədə 300 nəfər işçi çalışacaq. Zavod istifadəyə verildikdən sonra il ərzində 30 min idman, uşaq və şəhər tipli velosiped istehsal etmək mümkün olacaq.



kosmos

# Marsda quyu qazılacaq



*Günəşin planetlərin iqliminə qlobal təsirinin araşdırılması üçün ABŞ-ın Cons Hopkins Universitetinin tətbiqi fizika laboratoriyasının mütəxəssisi Ralf Lourens Marsın səthini qazmağı təklif edib.*

Hesab edilir ki, Yer üzündə təxminən 1300-1870-ci illər arasında kiçik buzlaşma dövrü olub. Bunun baş verməsi səbəbləri indiyədək məlum deyil. Əsas fərziyyələrdən biri kimi Günəşin fəallığının azalması, eləcə də vulkan püskürmələrində baş verən dəyişikliklər irəli sürülür.

Lourens birinci fərziyyəni yoxlamaq qərarına gəlib. Əgər Günəş Yerə belə təsir edirsə, onda onun fəallığı başqa planetlərdə də dəyişiklik yarada bilər. Alim Marsda quyu qazmağı və bunun vasitəsilə fərziyyəni yoxlamağı təklif edir.

Quyunun şaquli kəsiklərinin strukturu üzrə Yerdə kiçik buzlaşma dövrünün olması haqqında nəticə çıxarmaq mümkündür. Qrenlandiyada dərinliyi 60 metr olan quyunun köməyi ilə aparılan analoji tədqiqatlar Yerin tarixində bu dövrün mövcudluğunu təsdiqləyib.

Alimin fikrincə, Marsda Günəş radiasiyasının çatışmazlığı həm də planetin səthində havanın temperaturunu yarım dərəcə aşağı salıb. Lourensin hesablamalarına görə, bunu təsdiq və ya təkzib etmək üçün dərinliyi 40 metr olan quyu kifayət edir.

Artıq 2016-cı ildə NASA beş metr dərinliyində qazma işləri aparmaq üçün «Qırmızı planetə» «Insight» aparatı göndərmək niyyətindədir.

texnologiya

# Bank hesabları üçün internet

*«Javelin Strategy & Research» şirkətinin tədqiqatına görə, amerikalıların 75%-i hesablarını onlayn rejimdə açaraq ənənəvi bank şöbələrinə getməkdən imtina etməyə üstünlük verir.*

Banklar müasir texnologiyaları təşviq edərək istifadəçilərə mobil və internet kanalları vasitəsilə müxtəlif xidmətlər təklif edirlər. Ötən il avtomobil krediti və ya ipotekanın alınması üçün mobil sifarişlərin sayı 60% artıb.

Maliyyə müəssisələri, həmçinin, filialları yeni avadanlıqlarla təchiz etməklə texnologiyalar tətbiq edir və diqqəti ekspert məsləhətlərinin verilməsinə yönəldirlər.

Bununla belə, yeni texnologiyaların qəbul edilməsinə hazırlıq onların inkişaf tempini bir qədər qabaqlayır. Amerikalıların əksəriyyəti hələ də hesab açmaq üçün banka müraciət etmək məcburiyyətindədir. Rəyi soruşulanların əksəriyyəti bildirib ki, ənənəvi bank şöbələrinin bir sıra üstünlükləri var. Sorğuda iştirak edən 3100 nəfərin 69%-nin rəyinə görə, hesab və digər xidmətlərin bank filialında rəsmiləşdirilməsi fərdi məlumatların mühafizəsi baxımından təhlükəsizdir.

**Müdriklər deyib ki...**

*«Aydın sual qoymadan həqiqətə yaxınlaşmaq mümkün deyil. Sual dəqiq olmayanda cavab da dəqiq olmur».*

*Yohan Höyzinqa (1872-1945)*

